01_27 IYUl-QARA.qxd 1/11/2024 9:39 PM Page 1


# UNİKAL

№01 (2183) 12 yanvar 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.az   unikal-1@mail.ru




# Azərbaycan səhiyyəsində "üçbaşlı xaos"



Səh.3

## Emin Əmrullayev yenidən tənqid hədəfində

*Elm və təhsil naziri Emin Əmrullayevin son açıqlamaları növbəti dəfə müzakirə mövzusuna çevrilib. Belə ki, nazir "İctimai TV"-yə müsahibəsində deyib: "Ən yaxşı təhsil sistemi Sinqapurdadır. Orada bir sinifdə standart olaraq 40 şagird təhsil alır. Keyfiyyəti, hazırlığı yerində olan müəllim hazırlığı yerində olmayan müəllimin 6 uşaqla göstərdiyindən daha yaxşı nəticəni 40 uşaqla göstərir. Bizim təhsil sistemimizin sıxlıq problemi yoxdur. Sıxlıq yalnız bir neçə məktəbdə var". Əmrullayev bir sinifdə normadan artıq şagird oxumasının təhsil prosesinə mənfi təsir göstərməsi barədə deyilənləri mif adlandırıb. Nazirin söylədikləri isə cəmiyyətdə narazılığa səbəb olub və ciddi tənqidlərlə qarşılanıb. Məsələn, Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov "pravda.az"-a açıqlamasında Elm və təhsil nazirinin...*

Səh.8

## "İlk növbədə inflyasiyanı cilovlamağı bacarmalıyıq"



*Milli Məclisin deputatı Vahid Əhmədov "Unikal"a müsahibə verib. O, özəl pensiya fondlarının üstünlüklərindən, bu il pensiyaların nə qədər artırılacağından, ərzaq qiymətlərinin bahalaşmasından və başqa məsələlərdən danışıb.*
*-Vahid müəllim, Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov bildirib ki...*

Səh.4

## Hacıbala Abutalıbovun oğlu İstanbulda tarixi binaya qanunsuz müdaxilə edib



*Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbov İstanbulda tarixi binaya qanunsuz müdaxilə edib və orada bərpa işləri aparıb. "Unikal" xəbər verir ki, bu barədə Türkiyənin "Bir gün" qəzeti məlumat yayıb. Bildirilir ki, vətəndaşlıq aldıqdan sonra Türkiyədə hotellər alaraq tikinti fəaliyyətinə başlayan İsrafil Abutalıbov İstanbulun Fatih...*

Səh.8

## Arif Əsgərovun yeni vəzifə ümidi...



*"Unikal" qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədə bugünkü məqaləmiz sabiq nazir müavini Arif Əsgərov haqqındadır. Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları"...*

Səh.7

01_27 IYUl-QARA.qxd 1/11/2024 9:40 PM Page 2



# "Qeyrəti, namusu olan başqasının əxlaqını müzakirə etməz" - Nura Suri

***"Başqa insanların həyat tərzinə, geyiminə, şəxsi həyatına burnunuzu soxmaqdan nə zaman əl çəkəcəksiniz? Niyə öz uşaqlıq travmalarınız və komplekslərinizlə məşğul olub özünüzü sağaltmaq istəmirsiniz? Niyə roldan rola girməkdən bezmirsiniz? Daxilən başqa, adam içində başqasınız".***



"Unikal" xəbər verir ki, bu sözləri müğənni Nura Suri sosial şəbəkə hesabında yazıb.

"Niyə qeyrət və namus adı altında insanlara şər-böhtan atmaqdan çəkinmirsiniz? Qeyrəti, namusu olan başqasının əxlaqını, həyatını müzakirə etməz. Niyə hər mövzuda müğənnilərə söz deməkdən utanmırsınız? Sizdən varlı, yüksək vəzifəli görəndə niyə yaltaqlıq edirsiniz? Özünüzü niyə aldadırsınız? Niyə düşünürsünüz ki, etdiyiniz pislikləri heç kəs bilmir, görmür? Niyə insanlara xoş söz deməyə diliniz gəlmir? Niyə paxıllığı içinizdə bəsləyib böyüdürsünüz? Niyə uğurunuzu uğurlu insanların ətrafında olmaqda görürsünüz? Elə indi bu sualların cavabı düşünüb özünüzü dəyişin".

# Nisə Qasımova susqunluğu pozdu: "Tərifləyib dağ başına qaldırmayın"

***"İndi kim nə istəyir, edir, geyinir, oxuyur".***

"Unikal" bakıvaxtı.az-a istinadən xəbər verir ki, bunu Xalq artisti Nisə Qasımova müsahibələrindən birində deyib.

Onun sözlərinə görə, hamı zəmanədən şikayətlənir. Amma hər şeyi zəmanə ilə bağlamaq olmaz: "Tutalım ki, hər şey zəmanədəndir. Onda, bəs insanın özünə qarşı qoyduğu senzura? Bəs özümüzə olan tənqidlərimiz? Biz axı xalqın, millətin qarşısına çıxırıq. Biz hər hərəkətimizlə örnək olmalıyıq".



Sənətçi gənc müğənniləri tənqid etməkdən də çəkinməyib: "İndi kim nə istəyir, edir, geyinir, oxuyur. Mən bilmirəm ki, efirləri qınayım, yoxsa qınamayım. Çünki efirlərə sənətçini yox ha, oxumağı bacaranı dəvət etmək düzgün deyil".

Xalq artistinə görə, onlara məqam ayırmaq lazımdır ki, bunlar da oxumağı bacarırlar: "Amma onları tərifləyərək dağın başına qaldırmaq lazım deyil. Olmaz belə, olmaz".

# "Yaxşıyam" deyib, əbədi uzaqlaşdı" - Son görüşlərini belə xatırladı



***Xalq artisti Naibə Allahverdiyeva mərhum Əməkdar artist Aygün Bəylərlə bağlı paylaşım edib.***

Aktrisa xanəndə ilə son görüşlərini belə xatırlayıb: "Əlvida... Son görüşümüz muğam mərkəzində oldu. Bir az kefsiz idim deyə, heç kimə baxmadan asılqana tərəf getdiyim anda kimsə qolumdan tutub, məni qucaqlayaraq dedi: "Necəsiniz, Naibə xanım?". Fikir qarışıqlığından bir anlıq qarşımda kimin olduğunu sezə bilmədim. Aygün çox dəyişmişdi, sanki kökəlmişdi. Mən də onu qucaqlayaraq "Yaxşıyam canım, sən necəsən" dedim. O isə gözlərindəki özünəməxsus parlaqlığı ilə gülümsəyərək, yaxşıyam dedi və uzaqlaşdı. Özü də əbədi... Xərçəng olduğunu unutmuşdum. Allah sənə rəhmət eləsin, sənətkar".

Qeyd edək ki, Aygün Bəylər yanvarın 6-da Ankarada müalicə aldığı xəstəxanada dünyasını dəyişib.

# Röya: "Aygün Bəylər çox xətrimə dəymişdi..."

***Röya Ayxan məhkəməlik olduğu və bir neçə gün öncə həyatını itirən Əməkdar artist Aygün Bəylər ilə bağlı ilk dəfə açıqlama verib.***



"Unikal" azxeber-ə istinadla bildirir ki, "Xəzər" televiziyasının "İncə səhər" verilişinə danışan xalq artisti Aygün Bəylərinsözlərinin onun xətrinə dəydiyini etiraf edib.

"Mən bu haqda geniş danışmaq istəmirəm. Çünki o adamı yaxından tanımırdım. Amma onun sözləri mənim çox xətrimə dəymişdi. Doğrudan da ona küsmüşdüm. Amma indi başa düşürəm ki, çox az ömrümüz var, bilmirik sabah nə olacaq. Könül qırmayaq. Çox istərdim ki, o yaşasın. Çünki balası var. Amma bir onu deyə bilərəm ki, o ömür boyu yaşayacaq".

# "Onun sayəsində Nigar olmuşam" - Nigar Şabanova



***"Bu dünyada ən çox təklikdən qorxuram. Allah heç bir qadını təkliklə sınamasın".***

"Unikal" xəbər verir ki, bu sözləri xanəndə Nigar Şabanova "Rəngarəng səhər" verilişində deyib.

O, həyatda tək qalmaqdan və sınanılmaqdan qorxduğunu ifadə edib: "Həyatda ən çox anamı sevirəm. Onunla sınanıldım. Hazırda o, ağır xəstədir. Mən onun sayəsində Nigar olmuşam. Bu qədər başıma gələnlərin anamın sayəsində öhdəsindən gəlmişəm".

# "Sizdən sadəcə bunu istəyirəm" - Aynişan

***Əməkdar artist Aybəniz Haşımovanın blogger qızı Aynişan Quliyeva tənqidlərə cavab verib.***



Mərhum Əməkdar artist Aygün Bəylərin qızına yardım etmək istəməsi Aynişanın başına bəla olub. Ünvanına deyilən tənqidlərə o, belə reaksiya verib.

"Paylaşımlarımı görmüsünüz. Niyyətimi və niyyətimizi bilirsiniz. Haqqıma kiminsə girməyinə icazə verməməyinizi istəyirəm. Sizdən sadəcə bunu istəyirəm" deyə, Aynişan izləyicilərinə səslənib.

Qeyd edək ki, Aynişan "Hesab açıb, Canan (Aygün Bəylərin qızı - red.) üçün pul yığaq, 18 yaşından sonra istifadə etsin" sözlərini yazıb. Onun bu fikirləri tənqid edilib.

Aynişan əlavə edib ki, A.Bəylərin bacısı anası Aybəniz Haşımovaya zəng edərək "Cananın 60 il yaşaması üçün də büdcəsi var" sözlərini söyləyib.

Daha sonra məsələyə Əməkdar artist Aygün Bəylərin prodüseri Sultan Mustafayev münasibət bildirib. O əlavə edib ki, bu sözlər mərhumun ailəsinin xoşuna gəlməyib.

# Əməkdar artist: "Lüt gəzənlərə heç nə olmur"

***"Lüt gəzənlər də var, özünü apara bilməyənlər də. Amma onlara heçnə olmur. Çünki murdar əski tüstü götürmür. Onlara baxanda Aygün ölməli deyildi".***

"Unikal" azxeber-ə istinadla bildirir ki, bu sözləri Əməkdar artist Gövhər Rzayeva dava-dalaş içərisində olan şou biznes əhlinə ünvanlayıb.

"Həyatdır, itirə, itirə gedirik. Bu sənətdə olanlar sağ ikən birbirini qırırlar. Mən bu yaşıma kimi görməmişəm ki, kimsə öləndə onu aparıb zər-xaranın içində basdırsınlar. Hamımız bir parça bezdə gedəcəyik, o da qismət olsa. Bir birinizi qırmayın, mehriban olun, dünya fanidir. Ölümü düşünün, Allahdan qorxun".

01_27 IYUl-QARA.qxd 1/11/2024 9:41 PM Page 3





## Hacıbala Abutalıbovun oğlu İstanbulda tarixi binaya qanunsuz müdaxilə edib

***Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbov İstanbulda tarixi binaya qanunsuz müdaxilə edib və orada bərpa işləri aparıb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin "Bir gün" qəzeti məlumat yayıb. Bildirilir ki, vətəndaşlıq aldıqdan sonra Türkiyədə hotellər alaraq tikinti fəaliyyətinə başlayan İsrafil Abutalıbov İstanbulun Fatih səmtində də bir çox mülklər alıb.

2017-ci ildə Küçükayasofya məhəlləsində qorunan ərazidə yerləşən və biri qismən Vəqf mülkiyyəti olan iki sənədli bina alan Abutalıbovun bərpa işləri çərçivəsində binalara qanunsuz hissə əlavə etdiyi iddia olunub. Məsələ ilə bağlı şikayət edilsə də, binada inşaat işləri davam etdirilib.

İstanbul Böyükşəhər Bələdiyyəsinə, Fatih Bələdiyyəsinə, Ekologiya və Şəhərsalma Nazirliyinə və Vəqflər Ümumi Müdirliyinə edilən şikayətlərdən sonra binada lazımi yoxlamalar aparılıb və qanunsuz əlavələrin olduğu müəyyən edilib. Lakin heç bir söküntü aparılmayıb.

Məlumata görə, İ. Abutalıbovdan şikayətçi olan şəxs qonşusu İlyas Bayezitdir. İ. Abutalıbov da öz növbəsində prokurorluğa ərizə ilə müraciət edərək qonşusundan şikayətçi olub. Bildirib ki, həmin şəxs onu hədələyərək külli miqdarda pul almaq istəyir. "Mənə pul verməsəniz, sizi daha çox şikayət edəcəyəm", - bu sözləri həmin şəxsin Abutalıbova dediyi iddia olunur.

***Gülayə Mecid***

## Seçkilərdə təşviqatla əlaqədar əsas məhdudiyyətlər açıqlandı




***"Həyat sübut edir ki, medianın seçki prosesində iştirakı seçkilər elan olunandan sonra başlayır".***

"Unikal" xəbər verir ki, bunu bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin prezident seçkilərində fəaliyyətinin əsaslarına həsr olunan müşavirədə Mərkəzi Seçki Komissiyasının üzvü Fuad Cavadov deyib.

O bildirib ki, seçkilər zamanı mediada gedən informasiyalar birbaşa seçki fəallığına təsir edən faktorlardan biridir: "Qanun konkret olaraq təşviqatla məşğul olan dairəni müəyyən edir. Qanunda konkret olaraq təşviqatla məşğul ola bilməyən dairələrin də subyektləri müəyyən olunub. Xarici KİV, QHT-lər, kapitalının 30 %-i xarici şirkətə məxsus olan Azərbaycanda olan qurumlar da təşviqatla məşğul ola bilməz. Eyni zamanda təşviqat aparanlar və mətbuat orqanları ilə bağlı da məhdudiyyətlər var".

O xatırladıb ki, 6 fevral 2024-cü ildə təşviqat prosesi başa çatacaq və xalqa bir gün sükut veriləcək: "Həmin gün xalq kimə səs verəcəyinə qərar verməlidir".

MSK üzvü sosial şəbəkələrin həyatımıza kifayət qədər daxil olduğunu qeyd edib: "Vaxtından əvvəl təşviqat kampaniyasına başlanılmamalıdır. Eyni zamanda 18 yaşına çatmamış vətəndaşlar da təşviqatla məşğul ola bilməzlər".

# Emin Əmrullayev yenidən tənqid hədəfində

## Elm və təhsil nazirinin son açıqlamaları etiraz doğurdu - Siniflərdəki sıxlıqla bağlı ilginc ziddiyyət!

***Elm və təhsil naziri Emin Əmrullayevin son açıqlamaları növbəti dəfə müzakirə mövzusuna çevrilib. Belə ki, nazir "İctimai TV"-yə müsahibəsində deyib: "Ən yaxşı təhsil sistemi Sinqapurdadır. Orada bir sinifdə standart olaraq 40 şagird təhsil alır. Keyfiyyəti, hazırlığı yerində olan müəllim hazırlığı yerində olmayan müəllimin 6 uşaqla göstərdiyindən daha yaxşı nəticəni 40 uşaqla göstərir. Bizim təhsil sistemimizin sıxlıq problemi yoxdur. Sıxlıq yalnız bir neçə məktəbdə var".***

Əmrullayev bir sinifdə normadan artıq şagird oxumasının təhsil prosesinə mənfi təsir göstərməsi barədə deyilənləri mif adlandırıb.

Nazirin söylədikləri isə cəmiyyətdə narazılığa səbəb olub və ciddi tənqidlərlə qarşılanıb. Məsələn, Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov "pravda.az"-a açıqlamasında Elm və təhsil nazirinin məktəblərdə sıxlığın aradan qaldırılması ilə bağlı məsələyə daha əsaslı formada yanaşma gözlədiyini deyib. Sitat: "Mən parlamentdə də məsələni qaldırmışdım ki, bu gün xüsusilə Bakıdakı məktəblərdə çox ciddi sıxlıq var. Sıxlıq özünü Bakı kəndlərində və bəzi rayonlarda da ciddi şəkildə göstərir. Elm və Təhsil Nazirliyi problemdən çıxış yolu axtarmaq əvəzinə, Azərbaycan xalqını bu məsələ ilə barışmağa çağırır, sıxlığın normal olduğunu söyləyir. Belə bir fikir söyləmək üçün insan ya auditoriyadakı vəziyyətdən xəbərsiz olmalıdır, ya da bu, bilərəkdən real vəziyyəti təhrif etmək məqsədi daşıyır. Məktəblərdəki bu problemi bilmək üçün xüsusi bacarığa, istedada malik olmaq lazım deyil. Mən bu gün universitetdə müəllim işləyirəm, auditoriyada dərs deyirəm, hər il tələbələrin sayı dəyişir. Açıq-aydın görürəm ki, 10, 20, 30, hətta 5 nəfərlə dərs demək nə qədər fərqlidir. Bu məsələdə dünya standartları, eyni zamanda Azərbaycan reallığı var. Azərbaycan reallığında bir sinifdə 40 tələbənin olması dərslərin keyfiyyətinə çox ciddi təsir göstərir. Burada sadə məntiq var. Məsələn, evə tapşırıq vermisiniz, yaxud mühazirə keçmisiniz, tələbələrdən dərs soruşursunuz. Bir var ki, 45 və ya 90 dəqiqə ərzində siz 10 tələbəyə vaxt ayırırsınız, onlardan dərs soruşursunuz, bir də var ki, 40 tələbədən. Bu, həm dərsin keyfiyyətinə ciddi təsir edir, həm də birmənalı olaraq 40 nəfərlik auditoriyanı idarə etmək daha çətindir, xüsusilə, indiki vəziyyətdə. Sözün açığı, belə bir açıqlamanın verilməsi qəbuledilən deyil".

Nazirin sözlərinə təhsil ictimaiyyətinin tənqidi reaksiyasını təbii hesab edən deputatın sözlərinə görə, Emin Əmrullayevin açıqlaması real vəziyyətlə uyğun gəlmir. Sitat: "Hesab edirəm, bu kimi açıqlamalar verilərkən çox ehtiyatlı və diqqətli olmaq lazımdır. İnsanları bu vəziyyətlə barışmağa yox, mərkəzi icra hakimiyyəti kimi aidiyyəti qurumlar qarşısında məsələ qaldırmalıyıq ki, məktəblərdəki sıxlıq aradan qaldırılsın. Sıxlığın həlli yolu ondan keçir ki, yeni məktəblər tikilsin, yaxud hər bir şagird öz bölgəsindəki məktəbdə təhsil alsın. Belə məsələlərin cəmiyyətə açıq-aydın ötürülməsi stereotiplərin qırılması deyil, əslində, Azərbaycan təhsilinə yanaşmanın düzgün və sağlam olmamasının göstəricisidir".

Qeyd edək ki, Emin Əmrullayevin təhsilə dair müxtəlif mövzularda açıqlamalarının cəmiyyətdə rezonansla qarşılanması və tənqid hədəfinə çevrilməsi artıq adət halını alıb. İnsafən, nazirin bəzi açıqlamaları ətrafında ajiotaj süni təsir də bağışlayır. Sanki kimlərsə Əmrullayevi tənqid atəşinə tutmaq üçün fürsət axtarır, bu səbəbdən onun söylədiyi hər sözü fərqli yerlərə çəkmək istəyirlər.



Lakin Emin müəllimin siniflərdəki sıxlığı yaxşı bir şey kimi qələmə verməyə çalışması, həqiqətən də, absurddur. Əvvəla, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, hər sinifdə 20 nəfər olmalıdır, praktki olaraq isə 25 nəfərdən artıq uşaq yığılmamalıdır. İndi belə çıxır ki, nazir qanunun bu müddəası ilə razı deyil.

İkincisi, az qala bütün təhsil ekspertləri bildirirlər ki, bir sinifdə 25-dən artıq şagird varsa, əlavə sinif yaratmaq lazımdır. Mütəxəssislərin fikrincə, sıxlıq məsələsi Azərbaycan təhsilində şagirdlərin keyfiyyətli biliyə yiyələnməsində müəyyən maneçilik törədir və bu aradan qaldırılsa, yaxşı olar. Əmrullayevin sözlərindən anlaşılan isə odur ki, nazir təhsil mütəxəssisləri ilə də daban-dabana zidd düşünür. Həm də tamam fərqli reallıqdan, təcrübədən - Sinqapur nümunəsindən çıxış edərək!

Axı ola bilsin, Sinqapurda bir sinifdə 40 şagird oxuyur, lakin orada sinif otaqlarının ölçüləri barədə də rəqəm açıqlamaq olarmı? Axı bizim məktəblərdəki sinif otaqlarında 20-25-dən artıq şagird üçün parta qoyduqda nəinki şagirdlərin, hətta müəllimlərin sərbəst hərəkəti belə mümkünsüzə çevrilir! Emin müəllimin bu sadə gerçəklikdən, doğrudanmı, xəbəri yoxdur? Elə isə hörmətli naziri 30-32 şagirdin olduğu siniflərə baş çəkməyə dəvət edirik. Getsin və gözləri ilə görsün ki, həmin sinif otaqlarında normal təhsil almaq bir yana qalsın, nəfəs almaq belə mümkün deyil!

Bütün bu sadə həqiqətlər fonunda, Əmrullayevin məlum açıqlamaları həqiqətən də yalnız tənqid edilə bilər. Hörmətli nazirin, yaxud rəhbərlik etdiyi nazirliyin, həm də Azərbaycan məktəblərindəki reallıqla üst-üstə düşən əks-arqumenti varsa, dinləməyə və çap etməyə hazırıq.

***Sənan Mirzə***

# Prezident İlham Əliyev yeni “yol xəritəsi” cızır - Təhlil

***Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində Azərbaycanın dövlət olaraq xarici və daxili idarəetmədəki yeniliklər konsepsiyasını əhatə edən zəngin tezisləri gündəmə gətirdi. Bu, Azərbaycanın strateji müdafiə qabiliyyətini zəifləmək üçün ona qarşı kəskin mövqedə duran rəqiblərlə mübarizə aparmaq imkanlarını nəzərdə tutan məqamlara aydınlıq gətirir. Prezident regionda mövcud reallıqlardan narazı qalan iddialı gündəliklərin mahiyyətini açdı, regional təhlükəsizliklə risklər arasındakı sərhəd nişanlarını göstərdi.***

Siyasi-şərhçi Aqşin Kərimov konseptual şəkildə yanaşdığımız bu hissələri ayrıca bəndlərlə izah etməyin zəruri olduğunu vurğulayıb. Onun fikrincə, Prezident Azərbaycanın Ermənistan üzərində şərtləri fonunda getdikcə daha çox təsəvvür edilələbilən sülh gündəliyinin məğzini və Bakının prinsipial perspektiv strateji çərçivələrini göstərdi: “Ermənistanın işğalı altında olan Azərbaycanın səkkiz kəndinin geri qaytarılması, sərhədlərin delimitasiyası konteksti və sülh müqaviləsinin konturları Bakı-İrəvan münasibətlərinin gələcəyinin necəliyi barədə mümkün variantları nəzərdən keçirir. Əliyev prinsipial olaraq bildirir ki, Ermənistanla sərhədlərin delimitasiyası məsələsi ilə sülh müqaviləsinin imzalanması prosesi iki ayrı mərhələ kimi qalmalıdır və İrəvan konstruktiv mövqeyə köklənməlidir. Əks təqdirdə, Azərbaycanın artan hərbi imkanları mövqeyinin yekuna çatması məramı üçün meydana çıxacaq və İrəvan depressiv vəziyyətdə olacaq.

İlham Əliyev bu məsələni üç məsələyə nisbətdə daha aydın ifadə etdi:

- Zəngəzur dəhlizi Bakının maraqları nəzərə alınaraq Azərbaycan vətəndaşları, yükləri, nəqliyyat vasitələrinin quru yolla Naxçıvana keçidi üçün “Azərbaycandan-Azərbaycana yoxlanış olmadan” prinsipi ilə reallaşmalıdır. Bu nöqtədə “Azərbaycandan-Azərbaycana” marşrutunun nəhəng strateji maraqlar kontekstindəki mənası da qeyd edilə bilər;
- Bu qeydlərin narrativləri Azərbaycan-Ermənistan münasibətlərindəki delimitasiya mübahisələrinin həlli müstəvisində gündəmə gəlir. Belə ki, Ermənistan sərhədlərin delimitasiyasında Azərbaycanın strateji iradəsinin ziddinə qarşı şəkilləndirmə ideyalarına üstünlük versə, daha geniş bir təzyiq dalğası ilə üzləşəcək. Bu, delimitasiya üzrə kritik məqamları açıqlayır və sərhəd müəyyənləşməsinin hansı xəritələr üzərində aparılacağını dəqiqləşdirən nüansları diqqətə çatdırır.

Bu məsələ Əliyevin tarixi faktlar olan Ermənistana torpaq bəxşişləri, o cümlədən İrəvanın verilməsi ilə əlaqədar xatırlatmalar etməsinin işığında aydınlaşır;

- Ermənistanın revanşist kimliyini geri qaytarmaq cəhdlərinə qarşı Azərbaycan preventiv müdafiə zərurətlərindən irəli gələn tədbirlər həyata keçirəcək - təbii ki, real təhdid və təhlükə olarsa.

Prezident Ermənistanın arxasında duran əsas obrazı açıqladı və Fransanın üzərinə xeyli vurğular etdi. Əgər Ermənistan şirnikləndirmələrə aldanıb təhdidlərini region üfüqlərinin rəngini tündləşdirən səviyyəyə çatdırmağa çalışsa, Azərbaycan birtərəfli qaydada bölgənin strateji cizgilərini yeni fazaya çıxaracaq”.

Şərhçinin sözlərinə görə, Prezidentin müsahibə zamanı İkinci Qarabağ müharibəsini yekunlaşdıran 10 noyabr tarixinə “10 noyabr hadisəsi də bir dövr idi” deməsi iki məqamı açıqlayır: “Əliyev çıxışı zamanı feilin keçmiş zamanından istifadə etdi. Bu, müharibəni bitirən 10 Noyabr Bəyanatının bir çox müddəasının Azərbaycan tərəfindən icra edilməsi fonunda onların qüvvədən düşməsini təsvir edir. Qarabağa yerləşdirilən Rusiya sülhməramlı kontingentinin regionda fəaliyyəti üçün əsaslar qalmır, çünki nə münaqişə, nə hərbi insidentlər, nə də separatçılıq mövcuddur. Rusiya ilə sülhməramlıların çıxarılmasını özündə ehtiva edən cədvəlin hazırlanması üçün müzakirələrə başlanıla bilər.

Göründüyü kimi, Əliyev Ermənistanla münasibətlər zəminində sülh, bu olmazsa, güc tətbiq etmək gündəliyi ilə çəkindirmə bacarıqlarını təkmilləşdirəcəyini bəyan edir. Yeni reallıqların nəzdində ən üstün səviyyədə uğurlu siyasi kursu saxlamaq üçün növbədənkənar prezident seçkisi aktuallıq kəsb edir”.

Politoloq Elxan Şahinoğlu isə deyib ki, Azərbaycan prezidenti İlham Əliyev mütəmadi olaraq, mövcud vəziyyət və aktual məsələlər barədə toplam şəkildə ictimaiyyəti məlumatlandırmağı lazım bilir. İlham Əliyev bu yolla həm də dost və düşmənlərə, o cümlədən Ermənistana mesajlarını göndərmiş olur. Onun fikrincə, Prezidentin təxminən iki saat yarımlıq müsahibəsindən əsasən bu nəticələri çıxarmaq mümkündür: “Fransa anti-Azərbaycan mövqeyindən geri çəkilməyincə rəsmi Bakı da beynəlxalq aləmdə Fransanın kolonial siyasətinə qarşı mübarizəsini davam etdirəcək. Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi başa çatmaq üzrə olsa da, rəsmi Bakının hərəkat çərçivəsində Fransanın kolonial siyasətinə qarşı formalaşdırdığı “Bakı təşəbbüsü” çərçivəsində fəaliyyətini davam etdirəcək. Bununla İlham Əliyev fransalı həmkarı Emmanuel Makrona mesaj göndərdi ki, “Siz bizə problem yaratmaqda davam edəcəyiniz halda, biz də Sizə beynəlxalq aləmdə problem yaratmaqda davam edəcəyik”;

İkincisi, İlham Əliyev Nikol Paşinyanın təbliğat məqsədilə irəli sürdüyü “sülh qovşağı” ideyasını qəbul etmir. Paşinyan “sülh qovşağı” təşəbbüsü adı altında bölgə ölkələri arasında kommunikasiya xətlərinin hər bir ölkənin suverenliyi çərçivəsində açılmasının tərəfdarıdır. Rəsmi Bakı Paşinyanın təklifinə o halda razılaşmağa hazırdır ki, Ermənistan Azərbaycan vətəndaşlarına Zəngəzur dəhlizi ilə rahat gediş-gəliş imkanı yaratsın. Bu olmadan Azərbaycan Ermənistanla sərhədin heç bir məntəqəsini açmayacaq;

İlham Əliyev Azərbaycanın tarixi qələbəsindən sonra yeni hədəflər barədə düşünülməsinin tərəfdarıdır. Prezidentin “tarixi zəfəri istismar etmək olmaz” tezisini “tənbəlləşmək olmaz” kimi oxumaq lazımdır. Prezidentin bu tezisindən çıxış edərək Azərbaycan diplomatiyasının və diasporunun fəallaşmasına ehtiyac var. Ermənistan və bu ölkənin havadarları Azərbaycana qarşı informasiya savaşını genişləndiriblər. Misal üçün Parisin mərkəzində “Dağlıq Qarabağda erməni irsi təhlükə altındadır” şüarı altında sərgi keçirilir. Sərginin təşkilatçıları arasında Paris meriyası da var. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri Avropanın digər dövlətlərində Qarabağda dağıdılan məscidlərlə bağlı toplantı və sərgilər keçirməlidir və bu erməni təxribatına ən tutarlı cavab olar. Və ya Ermənistanda səfərdə olan Yunanıstanın xarici işlər naziri deyib ki, Afina “Dağlıq Qarabağda erməni irsinin qorunması üçün Avropa İttifaqında və YUNESCO təşkilatında təşəbbüslərlə çıxış edəcək”. Yunanıstan vətəndaşları soyuq qış aylarında evlərini Azərbaycan qazı ilə qızdırırlar. Bunu Afinaya xatırlatmağa ehtiyac var ki, Yunanıstan hökuməti Azərbaycanla bağlı siyasətində diqqətli olsun.

İlham Əliyev 2024-cü ildə Ermənistanla sülh sazişinin imzalanması üçün şəraitin yarandığı qənaətində olsa da, Ermənistanın silahlanmağa çalışmasının bu prosesi əngəlləyə biləcəyinə diqqəti çəkib. Prezident bir daha o fikri xatırladıb ki, əgər Ermənistan Azərbaycana təhlükə yaradan silah və ya raketlər əldə edərsə, Azərbaycan buna qarşı qabaqlayıcı addımlar atacaq. İlham Əliyevin bu xəbərdarlığı Ermənistanı xarici ölkələrdən hücum xarakterli silah və hərbi texnika almaqdan çəkindirməlidir. Əks halda müharibə qaçılmaz olacaq. Halbuki, Azərbaycan yeni müharibədə maraqlı deyil.



İlham Əliyev iki ölkə arasında sərhədlərin müəyyənləşməsinin sülh sazişinin imzalanmasına mane olmayacağı qənaətindədir. Həqiqətən sərhədlərin müəyyənləşməsi ilə bağlı danışıqlar uzun illər davam edə bilər və bu sülh sazişinin xaricində qalacaq. Azərbaycanın sərhəddəki strateji yüksəkliklərdən geri çəkilməyəcəyi bir daha vurğulandı. Sülh sazişinin imzalanması üçün təminatçı dövlətlərə də ehtiyac yoxdur. Azərbaycan anklav kəndləri geri qaytarmaq siyasətindən imtina etməyəcək. Azərbaycana bitişik kəndlər təhvil verilməli, Ermənistanın içində qalan kəndlərlə bağlı vəziyyət isə iki tərəfin formalaşdırdığı komissiyanın müzakirə predmeti olmalıdır.

Azərbaycan Cənubi Qafqazda böyük dövlətlər arasında geosiyasi rəqabətin əleyhinədir. Çünki bu rəqabət bölgə üçün əlavə problemlər yaradır. Bu mənada sülh sazişinin harada imzalanması mübahisə predmeti olmamalıdır. Önəmli olan heç bir dövlətin Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına və sonrakı danışıqlar prosesinə mane olmamasıdır”.

***M.İbrahimli***

01_27 IYUl-QARA.qxd 1/11/2024 9:41 PM Page 5



# Azərbaycan və Latviya prezidentləri arasında məktub mübadiləsi olub

***Azərbaycan Prezidenti İlham Əliyevlə Latviya Prezidenti Edqars Rinkeviçs arasında məktub mübadiləsi olub.***



"Unikal" xəbər verir ki, Azərbaycan liderinin məktubunda deyilir: "Hörmətli cənab Prezident, Əlamətdar tarix - Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sizi və dost xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Latviya arasında təşəkkül tapmış dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. Ötən dövr ərzində ikitərəfli əlaqələrimiz möhkəmlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, bir çox sahələrdə əməkdaşlığımız dinamik inkişaf etmiş, xalqlarımız arasında tarixən mövcud olmuş təmaslar intensivləşmişdir.

Biz Latviyanın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə daim verdiyi dəstəyinə görə minnətdarıq.

Bu gün ölkələrimiz arasında əməkdaşlığın inkişafı və yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq Azərbaycan-Latviya dostluq və tərəfdaşlıq münasibətlərinin həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində inkişafı və genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Latviya xalqına daim əmin-amanlıq və rifah diləyirəm".

Latviya Prezidenti Edqars Rinkeviçs Azərbaycanın dövlət başçısı İlham Əliyevə ünvanladığı məktubda bildirib:

"Zati-aliləri, Latviya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza sülh və firavanlıq arzulayıram.

Latviya-Azərbaycan dostluq münasibətləri 100 ildən artıq tarixə malikdir, Azərbaycanda çoxsaylı latviyalı yaşamışdır. Biznes sahəsində tərəfdaşlıq sayəsində ölkələrimiz arasında daha sıx əlaqələr qurulmuş, həmçinin gözəl Bakıdan ilhamlanaraq ədəbi, musiqi və incəsənət şedevrləri yaradılmışdır.

Qarşılıqlı maraq doğuran sahələrdə dialoqumuz və strateji tərəfdaşlığımız dərinləşir. Əminəm ki, birgə səylərimiz Latviya ilə Azərbaycan arasında dinamik mübadiləni daha da inkişaf etdirəcəkdir.

Fürsətdən istifadə edərək, Latviyanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə tam dəstəyini bir daha ifadə edirəm. Müstəqillik və ərazi bütövlüyü beynəlxalq nizama əsaslanan qaydaların təməl daşlarıdır və ölkələr arasında dinc yanaşı yaşamanın, dialoqun qorunub saxlanılması çox vacibdir. Dinc, sabit və firavan Cənubi Qafqaz bizim ortaq marağımızdır.

İcazə verin, ölkələrimiz arasında əlaqələri daha da dərinləşdirmək əzmində olduğumu ifadə edim. Bu baxımdan mən Sizin 2024-cü ildə Latviyaya səfər etməyinizi səbirsizliklə gözləyirəm. Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

# Ceyhun Bayramov UNICEF-in regional direktoru ilə görüşdü

***Yanvarın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya ölkələri üzrə regional direktoru, Avropada qaçqın və miqrant məsələləri üzrə xüsusi əlaqələndirici Regina de Dominitsis ilə görüşüb.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Unikal"a bildirilib ki, görüşdə Azərbaycan və UNICEF arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər və gələcək əməkdaşlıq perspektivləri, habelə cari regional vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ölkəmizin müstəqilliyinin bərpasının ilk günlərindən BMT-nin müxtəlif ixtisaslaşmış qurumları, o cümlədən UNICEF-lə yaxından əməkdaşlıq etdiyini, xüsusilə Ermənistanın ərazilərimizi işğalı nəticəsində qaçqına və məcburi köçkünə çevrilmiş uşaqlar üçün daha yaxşı təhsil və səhiyyə imkanlarının yaradılması sahəsində aidiyyəti dövlət qurumları ilə birgə uğurlu proqram və layihələrin həyata keçirildiyini qeyd edib.

Qarşı tərəf hazırkı postmünaqişə dövründə vətəndaşlarımızın öz evlərinə ləyaqətli qayıdışının təmini istiqamətində görülən genişmiqyaslı bərpa və yenidənqurma işləri, mina təhdidinə qarşı mübarizə barədə ətraflı məlumatlandırılıb.

Nazir Ceyhun Bayramov, xüsusilə mina təhdidi ilə mübarizə sahəsində UNICEF-lə əməkdaşlıq çərçivəsində aparılan maarifləndirmə fəaliyyətindən bəhs edərək, bu istiqamətdə beynəlxalq ictimaiyyətin diqqətini də bu təhdidə çəkməyin vacibliyini vurğulayıb.

Regina de Dominitsis UNICEF-in Azərbaycanla mövcud uğurlu əməkdaşlıq təcrübəsinin davam etdirilməsində maraqlı olduğunu, xüsusilə Azərbaycanın ev sahibliyi edəcəyi cari ildə ke-



çiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) və 2026-cı ildə keçiriləcək Ümumdünya Şəhərsalma Forumu çərçivəsində uşaq hüquqları sahəsində müxtəlif birgə təşəbbüslərin həyata keçirilə biləcəyini qeyd edib.

Postmünaqişə dövründə Azərbaycan tərəfindən məcburi köçkünlərin öz evlərinə qayıdışına istiqamətlənən bərpa və quruculuq fəaliyyətinin təqdirəlayiq olduğu, bu istiqamətdə UNICEF-in də prosesə dəstək göstərməyə hazır olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov öz növbəsində COP29-a hazırlıq prosesində ilkin planlar barədə qarşı tərəfi məlumatlandırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ᴬ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Prezidentdən Baba Vəziroğlu ilə bağli sərəncam



***Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Baba Vəzir oğlu Məsimov (Baba Vəziroğlu) "Şərəf" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Qeyd edək ki, yanvarın 10-da Baba Vəziroğlunun 70 yaşı tamam olub.

# "Fransanın Ermənistana silah satması narahatlıq doğurur" - Keçmiş səfir



***"Fransanın Ermənistana müdaxiləsi, silah satması və bu ölkə ilə birgə hərbi təlimlər keçirməsi narahatlıq doğurur".***

"Unikal" xəbər verir ki, bu barədə İranın Azərbaycandakı keçmiş səfiri Mohsen Pakayin "X" hesabında yazıb:

"Sülh prosesini pozmaq üçün regiondankənar dövlətlərin müdaxiləsi ehtimalı Ermənistan və Azərbaycanın diqqət etməli olduğu narahatedici məqamlardan biridir. Fransanın Ermənistana müdaxiləsi, silah satması və bu ölkə ilə birgə hərbi təlimlər keçirməsi narahatlıq doğuran məsələlərdəndir".

# Əli Əsədov UNICEF-in regional direktoru ilə görüşüb



***Yanvarın 11-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru, UNICEF-in Cenevrədəki BMT ofisində Nümayəndəsi və Avropada Qaçqınlar və Miqrant məsələləri üzə xüsusi koordinatoru Recina De Dominişislə görüşüb.***

Hökumətdən APA-ya verilən xəbərə görə, görüşdə Azərbaycanın BMT və onun ayrı-ayrı təsisatları ilə tərəfdaşlığa böyük önəm verdiyi və bu baxımdan UNICEF ilə əməkdaşlığın xüsusi önəm kəsb etdiyi bildirilib.

Azərbaycanla BMT-nin Uşaq Fondu arasında uzunmüddətli və müxtəlif sahələri əhatə edən səmərəli tərəfdaşlığın mövcud olduğu vurğulanıb.

Azərbaycanda uşaqların müdafiəsinin və uşaq hüquqlarının təmin olunmasının diqqət mərkəzində olduğu bildirilərək ötən dövrdə ölkəmizin BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyası daxil olmaqla bir sıra beynəlxalq sənədlərə qoşulduğu vurğulanıb.

Bildirilib ki, 2020-ci ildə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" və bu çərçivədə 5 illik Fəaliyyət Planı qəbul edilmişdir.

Eyni zamanda Azərbaycanda sağlamlıq imkanları məhdud, eləcə də həssas təbəqədən olan uşaqlara dövlət tərəfindən böyük qayğı göstərildiyi vurğulanıb.

Görüşdə həmçinin keçmiş münaqişədən əziyyət çəkmiş uşaqlara yardım, işğaldan azad edilmiş ərazilərdə mina təhlükəsi ilə bağlı maarifləndirmə, cari ildə Azərbaycanda keçiriləcək İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində uşaq hüquqlarının qorunması və digər sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub.

ELAN

Daşkəsən rayonunun Quşçu kəndində qeydiyyatda olan Mahmudov Eyvaz Məcməddin oğluna məxsus 24.02.1986 tarixdə verilmiş AN458756 nömrəli veteranlıq vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

01_27 IYUl-QARA.qxd 1/11/2024 9:41 PM Page 6



# Azərbaycanın işğal altında olan 8 kəndi nə vaxt geri qaytarılacaq?

## Sabiq XİN rəhbəri: "Əgər, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edirsə, həmin səkkiz kənd geri qaytarılmalıdır"

***Prezident İlham Əliyev ötən gün yerli televiziya kanallarına verdiyi müsahibəsində bir sıra vacib siyasi məqamlara toxunub.***

Dövlət başçısı Azərbaycanın hələ də işğal altında qalan kəndləri barədə danışıb. İlham Əliyev işğal altında qalan səkkiz kəndin məsələsinin daim gündəlikdə olduğunu bildirib. Prezident qeyd edib ki, komissiyaların növbəti görüşü bu ay nəzərdə tutulur və orada bir mövzu olacaq: Qazax-Tovuz bölgəsinin delimitasiya məsələsi. Dövlət başçısı həmçinin Zəngəzur dəhlizi ilə bağlı məsələyə də toxunub. İlham Əliyev bildirib ki, Zəngəzur dəhlizi açılmasa, Azərbaycan Ermənistanla heç bir başqa yerdə sərhədini açmağa fikrində deyil.



Bu məsələlərlə bağlı "Unikal"a açıqlama verən keçmiş xarici işlər naziri hazırda işğal altında olan səkkiz kənd Azərbaycanın torpağıdır: "Əgər, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edirsə, həmin səkkiz kənd geri qaytarılmalıdır. Buna baxmayaraq, bu məsələdə bəzi problemlər də var. Belə ki, sözügedən kəndlərin 3-nə birbaşa getmək olur. Digər kəndlərə getmək üçün isə Ermənistan ərazisindən keçmək lazımdır. Mənim fikrimcə, bu məsələ ilə bağlı xüsusi komissiya yaradılmalıdır. Bütün bu məsələləri komissiya müzakirə etməlidir. Ermənilər də Azərbaycanın ərazisində olan anklavla bağlı öz tələblərini irəli sürmək istəyirlər. Ona görə də, bu məsələyə xüsusi baxılmalıdır", - deyə sabiq nazir qeyd edib.

Elmar Məmmədyarov Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı fikirlərini də şərh edib: "Burada Zəngəzur dəhlizinin formatından söhbət gedir. Ermənilər deyir ki, onların suverenliyinin altında olmalıdır, amma bu, real tələb deyil. Ermənistanın milli maraqlarının da bu mövzuya təsiri var. Əgər, onlar Ermənistan Rusiya ilə dəmiryolu açılmasını istəyirlərsə, bu Azərbaycan ərazisindən keçməlidir. Bunu da nəzərə almaq lazımdır. Bu da danışıqların mövzusudur. Əgər, burada Ermənistan siyasi iradə göstərməsə, bu məsələlərin həll olunmasının uzun proses olacağını düşünmürəm. Digər bir tərəfdən, əgər Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olmaq istəsə, bu, onlar üçün ziyan olacaq. Onlar istəməsə belə, by dəhliz İran və Naxçıvan ərazisindən keçməklə reallaşa bilər. Burada uduzan yenə də Ermənistan olacaq.".

***Murad İbrahimli***

# Bakıda fransız casusun ifşası ilə bağlı yeni təfərrüatlar

***Azərbaycanda iki fransız diplomatın persona-non-grata elan edilməsi və bu ölkədən çıxarılması ilə başlayan səs-küylü "casus qalmaqalı"na dair yeni təfərrüatlar məlum olub.***

Bu barədə Fransanın "L'Opinion" nəşri bildirib. Əvvəlcə heç kəs Martin Rayanın saxlanılması və 4 ay müddətinə həbsini Azərbaycan xüsusi xidmət orqanlarının Bakıda fransız casus şəbəkəsinin ifşasına dair açıqlaması ilə əlaqələndirməyib. Üstəlik, Fransanın Xarici İşlər Nazirliyi də bununla bağlı gözləmə mövqeyi tutmuşdu.

Lakin daha sonra məlum olub ki, artıq ötən il dekabrın 4-dən həbsdə olan M.Rayanın Azərbaycandan çıxarılan bu "diplomatlar"la əlaqəsi olub.

Nəşrdə o da qeyd olunub ki, Fransa və Böyük Britaniya vətəndaşlığı olan M. Rayan 4 il Bakıda yaşayıb və hətta azərbaycanlı qızla nişanlanıb. O, "Merkorama" adlı kiçik şirkət quraraq ixrac-idxalla, xüsusən şərab ticarəti ilə məşğul olub. M.Rayan heç bir siyasi fəaliyyətlə məşğul olmayıb:



"Lakin Fransa xüsusi xidmət orqanlarının nümayəndələri M.Rayanın iradəsinə zidd olaraq onu üçüncü ölkələr haqqında məlumatların toplanması və ötürülməsinə cəlb ediblər. M.Rayan səfirliyin iki əməkdaşı - "Frederik" və "Loran"la isti, hətta mehriban münasibətlər saxlayırdı. Amma onlar 2023-cü ildə Bakını tərk ediblər. "Loran"ı əvəz edən "Andre" onunla görüş istəyib. Görüş zamanı "Andre" M.Rayana siyasi məsələlərlə bağlı həddən artıq çox sual verib".

Məqalədə vurğulanıb ki, Martinin səfirliklə əlaqələri ictimaiyyətə açıq olan sadə məlumatların toplanılmasından, xüsusən də İran və Türkiyə ilə bağlı məlumatların toplanılması və ötürülməsinə çevrilib: "Başqa sözlə, söhbət yalnız passiv deyil, həm də aktiv əməkdaşlıqdan gedir".

"Bu qarşılıqlı inamsızlıq mühitində Martin əmin olub ki, səfirliyin nümayəndələri onu təhlükəli oyunlarında sadəcə "piyada" kimi istifadə etməyə çalışırlar", - məqalə müəllifi əlavə edib.

Onun sözlərinə görə, Azərbaycan xüsusi xidmət orqanları iki diplomatı, o cümlədən "Andre"ni şahid qismində dindirmək istəyib: "Lakin bundan imtina edildiyinə görə, onların hər ikisi ölkədən çıxarılıb".

"Görünən odur ki, fransız "diplomatlar" Fransa Xarici İşlər Nazirliyindən daha çox Fransa Xarici Təhlükəsizlik Baş İdarəsinə (DGSE) hesabat veriblər... Onların kimliyi açıqlanmayıb. Ola bilsin, Martin Rayan hətta özünün də xəbəri olmadan həmin idarənin "fəxri müxbir"i seçilib, amma o, DGSE agenti olmayıb", - "L'Opinion" nəşrində qeyd edilib.

# Qubadlıda Radio-Televiziya Yayım Stansiyasının işi bərpa edildi

***Qubadlı rayonu ərazisində yerləşən Balasoltanlı Radio-Televiziya Yayım Stansiyasının işi bərpa edilib.***



Bu barədə "Unikal"a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məlumat verilib. Bildirilir ki, işğaldan azad olunan ərazilərdə radio-televiziya yayım şəbəkəsinin bərpası istiqamətində aparılan işlər çərçivəsində sözügedən stansiyaya elektrik veriliş xətti çəkilib, texniki bina təmir edilib və stansiya texniki vasitələrlə təchiz olunaraq yayım üçün hazır vəziyyətə gətirilib.

Belə ki, hər biri 1 kVt gücündə iki ədəd FM radioverici, 1 ədəd 300 Vt gücündə televiziya vericisi, FM radio yayımlar üçün 1x2 konfiqurasiyalı və televiziya yayımları üçün 3x1 konfiqurasiyalı anten sistemləri, eləcə də digər zəruri texniki vasitələr quraşdırılaraq istismara verilib.

Nəticədə 89.5 MHs tezlikdə Azərbaycan Radiosunun, 96.9 MHs tezlikdə İctimai Radionun və 43-cü televiziya kanalında (650 MHs) 8 televiziya proqramının (AzTV, İctimai TV, İdman Azərbaycan TV, Mədəniyyət TV, CBC Sport, ATV, Xəzər TV, Space TV) Qubadlı, Laçın və Zəngilan rayonlarının digər stansiyaların siqnalları ilə əhatə olunmayan ərazilərində yayımı təmin olunub.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək 7 Radio-Televiziya Yayım Stansiyasının, o cümlədən Qubadlı rayonu ərazisində 2021-ci ilin 25 oktyabr tarixində Xanlıq Radio-Televiziya Yayım Stansiyasının işi bərpa edilib.

# Hər seçki məntəqəsində 3 müşahidəçi olacaq



***"Fevralın 7-də Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərini izləmək üçün 17 min 500-dən artıq müşahidəçi akkreditasiyadan keçib".***

Bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, 6300 ətrafında olacaq seçki məntəqəsində hərəsinə 3 müşahidəçi olacaq: "Müşahidəçi nə qədər çox olsa yaxşıdır".

# "İlham Əliyevin dediyi hər şeyi ciddi qəbul etməliyik" - Köçəryan

***"Biz İlham Əliyevin dediyi hər şeyi ciddi qəbul etməliyik".***

"Unikal" xəbər verir ki, bunu erməni deputat Andranik Köçəryan deyib.

O, Azərbaycan liderinin Zəngəzur dəhlizi ilə bağlı sonuncu açıqlamasını xatırladıb və bildirib ki, əgər dəhliz açılmasa, Azərbaycan başqa heç bir nöqtədə Ermənistanla sərhədi açmayacaq.

***Ağarza Elçinoğlu***

# Yaşa görə pensiyaya çıxanların sayı azalır

***Yaşa görə pensiyaya çıxanların sayında azalma olacaq.***

"Unikal" xəbər verir ki, buna səbəb qadınların pensiya yaşının artırılmasıdır.

Qadınların pensiya yaşının artırılması yaşa görə pensiyaya çıxanların sayının azalmasına səbəb olacaq. Bildirək ki, 2019-cu ildə yaşa görə 742 min insan pensiya alırdı. Bunun 466,8 min nəfəri qadınlar idi. 2023-cü ilin əvvəlində yaşa görə pensiya alanların sayı 696 min nəfərə, qadın pensiyaçıların sayı isə 404,5 min nəfərə enib.

Pensiya yaşının artırılmasından sonra qadınlar arasında yaşa görə pensiya alanların sayı bir qədər də azalacaq.

Xatırladaq ki, "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.

01_27 IYUI-QARA.qxd 1/11/2024 9:41 PM Page 7





# GUAM Parlament Assambleyasında sədrlik Azərbaycana keçdi

***Yanvarın 11-də Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM Parlament Assambleyasının videokonfrans formatında komitələrinin 6-cı birgə iclası, Bürosunun 18-ci iclası və qurumun 16-cı sessiyası keçirilib.***

Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Tədbirlərdə Milli Məclisin deputatları - Azərbaycanın GUAM PA-da nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev, üzvləri Əli Məsimli, Fatma Yıldırım, Cavid Osmanov iştirak ediblər.

Əvvəlcə, qurumun komitələrinin onlayn birgə iclası keçirilib. Tədbirdə GUAM məkanında hərbi və təhlükəsizlik sahəsində son vəziyyət, üzv dövlətlər arasında iqtisadi əməkdaşlıq, üzv dövlətlərin iqtisadi, humanitar davamlılığına və işğaldan azad edilmiş ərazilərin bərpasına yönəlmiş parlament fəaliyyəti və bir sıra digər məsələlərə baxılıb.

İclasda çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində əldə etdiyi qələbə, 2023-cü il 19-20 sentyabr tarixlərində həyata keçirdiyi uğurlu lokal antiterror tədbirləri barədə danışıb, hazırda ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edildiyini, Ermənistan işğalından azad edilmiş ərazilərdə intensiv quruculuq işlərinin aparıldığını, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını diqqətə çatdırıb.

Nümayəndə heyətimizin üzvləri Fatma Yıldırım və Əli Məsimli öz çıxışlarında Ermənistan işğalı zamanı tarixi, mədəni abidələrin dağıdılmasından, ekologiya və ətraf mühitə vurulan ziyandan, bu ərazilərdə basdırılan minaların yaratdığı problemlərdən danışıblar, bu gün işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa tədbirləri barədə söhbət açıblar. Deputatlar, həmçinin GUAM ölkələri arasında əməkdaşlığın inkişafı ilə bağlı fikirlərini bölüşüblər.

Sonra GUAM PA-nın Büro iclası olub. İclasda qurumun komitə iclaslarının nəticələri, milli nümayəndə heyətlərinin tərkibinin təsdiqi, 16-cı sessiyanın Kommünike layihəsi, növbəti iclasın tarixi və yeri ilə bağlı məsələlər nəzərdən keçirilib.

Həmin gün GUAM Parlament Assambleyasının 16-cı sessiyası keçirilib.

Onlayn tədbirdə ölkələrin suverenliyi və ərazi bütövlüyü, parlamentlərarası əməkdaşlıq və bir sıra digər məsələlər müzakirə olunub.

Sessiyada Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev "Dünya nizamının, suverenliyin və ərazi bütövlüyünün bərpası GUAM-a üzv dövlətlərin ali məqsədi kimi" mövzusunda çıxış edib. Millət vəkili mövzunun aktuallığını və vacibliyini qeyd edərək, ərazi bütövlüyünün beynəlxalq hüququn vacib prinsiplərindən biri olduğunu söyləyib. O, Azərbaycan ərazilərinin 30 il ərzində Ermənistan tərəfindən işğalının törətdiyi fəsadlardan bəhs edib. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının məsələ ilə bağlı Ermənistan silahlı qüvvələrinin dərhal Azərbaycan ərazilərini tərk etməsini tələb edən 4 qətnamə qəbul etdiyini, lakin bu sənədlərin uzun illər kağız üzərində qaldığını bildirib. Deputat bu gün Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyini, işğaldan azad olunmuş torpaqlara əhalinin geridönüşü üçün tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Tədbirdə GUAM PA-nın 16-cı sessiyasının yekun sənədi olaraq Kommünike qəbul olunub.

Sessiyada GUAM PA-ya sədrlik Ukraynadan Azərbaycana keçib.

# "İlk növbədə inflyasiyanı cilovlamağı bacarmalıyıq"

## Vahid Əhmədov: "Rəqabət Məcəlləsi işə düşəndən sonra onun da bazarda qiymət siyasətinə təsiri olacaq, inhisarçılığı müəyyən qədər aradan qaldıracaq"



***Milli Məclisin deputatı Vahid Əhmədov "Unikal"a müsahibə verib. O, özəl pensiya fondlarının üstünlüklərindən, bu il pensiyaların nə qədər artırılacağından, ərzaq qiymətlərinin bahalaşmasından və başqa məsələlərdən danışıb.***

***-Vahid müəllim, Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov bildirib ki, Azərbaycanda özəl pensiya fondlarının yaradılması ilə bağlı normativ sənədlərin hazırlanması tam yekunlaşıb. Onun sözlərinə görə, sənədlər razılaşdırılması üçün bir ay ərzində dövlət qurumlarına göndəriləcək. Özəl pensiya fondlarının hansı üstünlükləri var və bu fondların pensiya alan şəxslərə nə kimi müsbət təsiri olacaq?***

-Özəl pensiya fondlarının olması çox vacibdir. Bir neçə ildir ki, bu məsələni danışırdıq. Bunun gündəmdə olması yaxşıdır. Özəl pensiya fondlarının yaradılması əhali üçün çox müsbət addımdır.. Belə ki, vətəndaşın seçim imkanı olacaq. Baxacaq ki, indiki fondda onun pensiya məsələsi kifayət qədər həll olunmur, o zaman digər fondla müqavilə bağlayacaq. Seçim imkanı olan yerdə həmişə müsbət addımlar olub.

***-Ötən ilin orta aylıq əmək haqqı artımına uyğun olaraq pensiyalarda 10,8 faizlik indeksləşdirmə gözlənilir. Pensiyalarda nəzərdə tutulan bu artım bazardakı qiymətlərə uyğundurmu?***

-Hər il ölkədə nə qədər inflyasiya olursa, ona uyğun olaraq pensiyaların indeksləşdirilməsi olur. Məsələn, 500 manat pensiyası olan şəxs hardasa 50-60 manat əlavə vəsait alacaq. Yanvar ayının sonunda bu məsələ öz həllini tapacaq. Bunu müsbət qiymətləndiririəm. Bunun bazardakı qiymətlərə uyğunluğuna gəlincə, rəsmi statistikaya uyğundur. Rəsmi statistikada inflyasiya 10 faizə yaxın olur. Amma qeyri-rəsmi olaraq bazarda tək ərzağın inflyasiyası 20-30 faizə yaxın olub.

***-Ərzaq qiymətlərinin bahalaşması insanları ən çox narahat edən məsələlərdən biridir. Belə ki, ərzaq qiymətlərinin bahalaşması pensiya artımlarını "udur". Bunun tənzimlənməsi üçün hansı işlər görülməlidir?***

-Qiymət artımı çox ciddi məsələdir. İlk növbədə inflyasiyanı cilovlamağı bacarmalıyıq. Ona görə ki, inflyasiya aşağı olarsa, qiymətdə də ciddi problem olmaz. Hökumət 2024-cü ildə inflyasiyanı 5,3 faiz proqnozlaşdırır. Müəyyən qədər stabilləşmə olmalıdır. Doğrudur, 2023-cü ilə nisbətən ÜDM-də, gəlir və xərclərdə böyük artım yoxdur. Amma inflyasiya 5,3 faiz olarsa, qiymətlərdə müəyyən stabilləşmə olar. Digər tərəfdən Rəqabət Məcəlləsini qəbul etmişik. Bu məcəllə işə düşəndən sonra onun da bazarda qiymət siyasətinə təsiri olacaq, inhisarçılığı müəyyən qədər aradan qaldıracaq. Deməzdim ki, bu məsələ birdən-birə həll olacaq. Bunun üçün illər lazımdır. Məcəllə müəyyən qədər azad rəqabətin formalaşmasına kömək edəcək. Amma qiymətə təsir edən amil inflyasiyadır. Bizdə idxal inflyasiyası və süni qiymət artımı kifayət qədərdir. Bu məsələlər heç olmasa, ayda bir dəfə analiz olunmalıdır. Onun qarşısının alınması üçün anti-inflyasiya tədbirləri həyata keçirilməlidir. Hökumət bu tədbirləri görür, amma bunu daha intensiv etmək lazımdır. Ona görə ki, qiymət artımı insanların sosial vəziyyətinə ciddi təsir göstərir.

***-İşsizliklə bağlı məsələlər hər zaman əsas müzakirə mövzusudur. Bu günlərdə Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli bildirib ki, ötən il ölkədə 118 398 nəfər işlə təmin edilib. Bir ildə bu qədər şəxsin işlə təmin olunması realdırmı?***

-O rəqəmi deyirlərsə, ola bilər. Qarabağda da iş yerləri açılıb. Hazırda böyük tikinti-quruculuq işləri gedir. Amma bizi əsas narahat edən regionlarda iş məsələsidir. Regionlarda işsizlik problemi çoxdur. Regionların iqtisadi inkişafına vəsait ayrılsa da, orada lazımi iş yerləri aça bilməmişik. Cari ilin dövlət büdcəsinin müzakirəsi zamanı təklif etdim ki, 15 iqtisadi rayonun hər biri üzrə ayrıca iş yerlərinin açılması ilə əlaqədar xüsusi proqram hazırlanmalıdır. Heç olmasa bilməliyik ki, 2-3 ildən sonra hansı bölgədə iş yerləri açılacaq. Bölgələrdə işsizlik çox ciddi problemlərdən biridir. Sosial vəziyyətdən danışanda ən ciddi problem iş yerlərinin olmamasıdır.

***-Yanvarın 10-da Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı növbədənkənar prezident seçkilərinin fevralın 7-nə təyin olunmasının əsas səbəblərini açıqladı. Qeyd olundu ki, suverenliyin tam bərpası yeni dövrün başlanğıcıdır. Dövlət başçısı bildirib ki, yeni dövrün yeni hədəfləri olmalıdır, yeni dövrə köhnə hədəflərlə gedə bilmərik. Bu baxımdan, seçkidən sonra idarəetmədə yeni strukturların yaradılacağını düşünmək olarmı?***

- Cənab Prezidentin dediyi kimi, sentyabrdan sonra yeni dövr başlayıb. Bununla əlaqədar prezident seçkiləri keçirilir. Bundan sonra bələdiyyə seçkiləri, ola bilər ardınca parlament seçkisi olsun və s. Əsas problemimiz Qarabağ məsələsi idi və o da həllini tapıb. Hazırda dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə vəsait ayrılıb. Bununla yanaşı, digər regionların inkişafına, xüsusilə, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına daha çox diqqət ayırmalıyıq. Hökumət daha çox bu sahəyə diqqət etməlidir. Seçkilərdən sonra hökumətdə də dəyişikliklər olacaq. Belə ki, yeni hökumət formalaşacaq. Əsas insanların sosial vəziyyətini yüngülləşdirmək və bu sahəyə daha çox diqqət ayırmalıyıq.

***Anar Kəlbiyev***

01_27 IYUl-QARA.qxd 1/11/2024 9:41 PM Page 8



# Azərbaycan səhiyyəsində "üçbaşlı xaos"

## Teymur Musayev-Zaur Əliyev-Vüqar Qurbanov "üçbucağı" vətəndaşların həyatını risk altında qoyur

***Yeni ilin ilk günlərindən etibarən Azərbaycan səhiyyəsində qalmaqallı hadisələr yaşanır. Öncə Abşeron rayonunun Masazır qəsəbəsində təcili tibbi yardım balkondan yıxılan uşaq üçün edilən çağırışa gəlmədiyi açıqlandı. Bu barədə sosial şəbəkədə paylaşım edən Nərmin Hüseynzadə saatlarla gözlədikdən sonra uşağı özləri xəstəxanaya apardıqlarını demişdi."Dünən gecə qonşumun uşağı balkondan yıxıldı...***

İlk iş təcili yardıma zəng etdim. Bilin görək nə oldu? Gəlmədi. Düz 1.5 saat uşaq betonun üstündə qanının içində qaldı. 7 dəfə zəng etdim, dedi gələcək. Gəlmədi. Uşağın sınıq-sınıq olmuş qol-qıçını bir yerə toplayıb həyətdən tapdığımız taxtanın üstünə uzadıb, maşınla xəstəxanaya çatdırası olduq. Üstündən 3 saat keçəndən sonra, gecə yarısı bir xanım zəng edib mülayim səslə soruşdu ki,



gələk, ehtiyac var? Dedim gəl, yata bilmirəm, gəl çay içək. Dedim axı, uşaq 2 ci mərtəbədən yıxılıb, ayaqları sınıb, qan axır, özündə deyil. Necə gəlməyə bilər? Təcili yardım belə bir çağırışa necə gəlməyə bilər? Həyətimizə hərəyə bir dənə təcili yardım maşını alıb qoyaq ? Nə edək biz?", - deyə o yazmışdı.

Sonradan fakt təsdiqini tapmış, hadisədən 3-4 saat sonra zəng edərək "get kimə istəyirsən şikayət elə" cavabını verən həkimin işdən azad edildiyi açıqlanmışdı. Bu qalmaqalın əks-sədası sengimədən isə Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsində yerləşən Respublika Perinatal Mərkəzindəki yanğın faciə ilə nəticələndi, 4 körpə öldü. Hadisə ilə bağlı Baş Prokurorluqdan yayılan rəsmi açıqlamada Cinayət Məcəlləsinin 225.3 (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlandığı açıqlandı. Bildirildi ki, ilkin istintaq tədbirləri nəticəsində tibb müəssisəsinin 3 vəzifəli şəxsinin qanunsuz əməlləri ifşa edilib. Belə ki, toplanmış sübutlarla Mərkəzin direktoru Mehriban Abasquliyeva Cinayət Məcəlləsinin 314.3-cü, Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin müdiri Hamlet Mustafayev və Dəstək Xidmətləri şöbəsinin müdiri Elnur Əhmədli isə həmin Məcəllənin 225.3-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara bu maddələrdə nəzərdə tutulan ittiham elan edilib, məhkəmənin qərarı əsasında hər üç təqsirləndirilən şəxs barəsində ev dustaqlığı və vəzifədən kənarlaşdırma növündə qətimkan tədbirləri seçilib.

Ard-arda baş verən bu olaylar uzun müddətdir ictimaiyyətin, o cümlədən medianın və ekspertlərin diqqət çəkdiyi bir məsələni yenidən aktuallaşdırıb. Söhbət ölkə səhiyyəsini faktiki olaraq iflic vəziyyətinə gətirən "üçbaşlılıqdan" gedir. İş orasındadır ki, hazırda bu sektorda üç ayrı qurum söz sahibidir: hansısa tibbi xidmət üçün müraciət edən vətəndaşı Səhiyyə Nazirliyi TƏBİB-ə, TƏBİB İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, o da yenidən Səhiyyə Nazirliyinə yönəldir. Süründürməçiliklərdə hövsələdən çıxan vətəndaşın dərdinin üstünə dərd gəlir.

Hətta həkimlər də bu üçtirəliyin səhiyyə sektorunda çaşqınlıq yaratmasından, yersiz narazılıqlara yol açmasından şikayətçidirlər. Məsələn, həkim-radioloq Aydın Əliyev bir müddət öncə ölkədə səhiyyə siyasətinin düzgün qurulmamasından gileygüzar etmişdi. Sitat: "...səhiyyə siyasətini normalda həyata keçirməli olan qurum Səhiyyə Nazirliyidir. Faktiki isə Azərbaycanda bu dəqiqə tibbi xidməti göstərən TƏBİB-dir. O da İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə (İTSDA - red.) aiddir... Hazırda səhiyyə sahəsində haçalanma, tirələnmə və intriqa var ki, bunun da əziyyətini xalq çəkir".

Mütəxəssis əlavə eləmişdi ki, hazırda həm İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, həm TƏBİB-ə, həm də Səhiyyə Nazirliyinə inamsızlıq var: "Ölkədə tibbi xidməti həyata keçirən həkimlərdir... Həkim, tibb bacısı, kömək personal və digərlərinin əksəriyyəti isə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən narazıdır... İnsanlarımız da keyfiyyətli tibbi xidmət tələb edir ki, onlar da haqlıdır..."

Qeyd edək ki, Azərbaycan səhiyyəsində yaranmış üçtirəlik, bunun yaratdığı problemlər, nəticə etibarilə isə həm tibb işçiləri, həm də vətəndaşlarda yaratdığı narazılıq və narahatlıq hələ 2 il öncə də gündəmə gəlmiş, ciddi müzakirə mövzusuna çevrilmişdi. Həmin vaxt məsələ ilə bağlı açıqlama verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirmişdi ki, bu gün səhiyyədə tibbi xidmətin qurulması, həm İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, həm TƏBİB, həm də Səhiyyə Nazirliyi tərəfindən göstərilən xidmətlər bizim arzu etdiyimiz səviyyədə deyil.

Bütün bu xaotik durum ona gətirib çıxarmışdı ki, TƏBİB-in İTSDA-dan ayrılaraq Səhiyyə Nazirliyinə birləşdiriləbiləcəyinə dair iddiaların da gündəmə gəlməsini şərtləndirirdi. Hətta Azərbaycanda yeni nazirlik yaradılacağı ilə bağlı məlumatlar dolaşmağa başlamışdı. Belə ki, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və bu qurumun nəzdində fəaliyyət göstərən TƏBİB vahid ad altında birləşərək, Səhiyyə və Sığorta Nazirliyinə çevriləcəyi bildirilirdi.

Beləliklə, bir müddətdir Azərbaycan səhiyyəsində üçtirəlik əməllibaşlı müzakirə mövzusudur, bu müzakirələrin nə ilə yekunlaşacağı, istər həkimlərin, istər vətəndaşların narazılığına gətirib çıxaran məlum "üçbaşlılığa" son qoyulub-qoyulmayacağı məlum deyil. Məlum olan bircə odur ki, yazımızın əvvəlində bəhs etdiyimiz qalmaqallı, faciəli hadisələrə yalnız hansısa tibbi yardım xidmətinin, yaxud tibb müəssisəsinin yarıtmaz fəaliyyəti ilə izah edilə bilməz. Problemin kökündə başlıca olaraq səhiyyə sektorundakı xaos, üçtirəlik dayanır. Kimin məsuliyyət dairəsinin haradan başlayıb harada bitdiyini hətta bu sektora yaxın şəxslər də dəqiqliklə bilmir. Əvəzində isə ortaya acınacaqlı mənzərə çıxır: ölkə səhiyyəsindəki xaotikliyin, qarışıqlığın əziyyətini vətəndaşlar çəkir, onlar həm pullarını, həm də sağlamlıqlarını itirmək riski ilə üz-üzə qalırlar.

"Bu nə vaxta qədər davam edəcək, bu əndrabadi duruma nə vaxt son qoyulacaq" sualının cavabını isə elə üç nəfərdən soruşmaq lazımdır: Səhiyyə naziri Teymur Musayevdən, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanovdan və İTSDA-nın İdarə Heyətinin sədri Zaur Əliyevdən.

Hörmətli Teymur müəllim, hörmətli Zaur müəllim, hörmətli Vüqar müəllim, bəlkə, deyəsiniz: səhiyyə sistemi ilə bağlı şikayətləri, narazılıqları artıran, ən əsası, artıq insanların həyatını dəhşətli təhlükələrlə üz-üzə qoyan bu anormal durum, bu xaotik situasiya sizləri də narahat edirmi? Ölkə səhiyyəsindəki bu üçbaşlılığa nöqtə qoyub vahid idarəetməyə qayıtmağın qaçılmazlığını, vacibliyini anlamaq üçün daha hansı xoşagəlməzliklər yaşanmalıdır?!

***Sənan Mirzə***



# Xankəndi, Əsgəran, Ağdərə və Xocalıda seçki məntəqələri yaradıldı

***"Azad edilmiş ərazilərdə də 26 seçki məntəqəsi yaratmışıq".***

"Unikal" xəbər verir ki, bunu bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin prezident seçkilərində fəaliyyətinin əsaslarına həsr olunan müşavirədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov deyib.

"Xankəndi, Əsgəran, Ağdərə və Xocalıda da ayrıca məntəqələr yaradılıb. Xankəndidə seçki məntəqəsini artıq yaratmışıq. Bir zamanlar separatçıların fəaliyyət göstərdiyi binada seçki məntəqəsi yaratmışıq. İşğal illərində həmin yerlərdə separatçı rejim bölücülük fəaliyyəti ilə məşğul idi. Azad edilmiş ərazilərdə yaratdığımız məntəqələr digər yerlərdə yaradılan məntəqələrə nümunə olmalıdır. Xankəndi başda olmaqla, azad edilmiş ərazilərdə qurulmuş digər məntəqələrdən çəkilişlər aparılmalıdır".

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayacaq




***Niderlandın beynəlxalq bank və maliyyə xidmətləri korporasiyası ING (Internationale Nederlanden Groep) Azərbaycanda pul siyasəti ilə bağlı proqnozunu sabit saxlayıb.***

ING Azərbaycan Mərkəzi Bankının (AMB) 2024-cü il üzrə uçot faiz dərəcəsi üzrə proqnozunu dəyişməyərək 8% müəyyən edib. ING-nin proqnozuna görə, AMB yalnız, 2025-ci ilin birinci rübündə uçot dərəcəsini 7,75%-ə endirəcək, ilin sonunda isə bu, 7%-ə qədər azaldılacaq.

Qeyd edək ki, Mərkəzi Bank son iki qərarı ilə uçot dərəcəsini endirib. Sonuncu dəfə ötən il dekabrın 20-də Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 8,5%-dən 8.00%-ə, faiz dəhlizinin aşağı həddi 7.0%-dən 6,5%-ə, faiz dəhlizinin yuxarı həddi isə 9,5%-dən 9.0%-ə kimi azaldılıb. AMB bu il ilk dəfə yanvarın 31-də uçot dərəcəsi ilə bağlı qərarını açıqlayacaq.

# Azərbaycanda turizm polisinin yaradılması təklif edildi

***Azərbaycanda turizm polisinin yaradılması təklif edilib. Bu təklifi Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının təşkilatçılığı ilə "Turizm sənaye subyektlərinin ilin yekunları və COP29 ərəfəsində çağırışlar" forumunda Azərbaycan Turizm Bloqerləri Assosiasiyasının İdarə Heyətinin üzvü Mirsəməd Cəfərli verib.***

O qeyd edib ki, turistik səfərlərdə, eləcə də ölkəmizə gələn turistlərə qarşı dələduzluq hallarının qarşısının alınması üçün turizm polisinin yaradılması yaxşı olardı: "Malayziya, Tailand, qonşu Özbəkistanda da turizm polisi var. Bizdə də Daxili İşlər Nazirliyi tərkibində bu istiqamət üzrə ixtisaslaşmış polis əməkdaşlarının cəlbi yaxşı olardı və dələduzluq hallarının qarşısı alınardı".

# Daha 4 namizəd maliyyə hesabatını açıqladı



***Ötən günlərdə Mərkəzi Seçki Komissiyası (MSK) Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafanın, Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayevin, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyevin, Fuad Əliyevin prezidentliyə namizədliyini qeydə alıb.***

Bununla da prezident seçkilərində 7 namizədin iştirak edəcəyi təsdiqlənib. Mövcud qanunvericiliyə görə, namizədliyi qeydə alınan şəxslər MSK-ya seçki fondlarının gəlir və xərcləri əhatə edən maliyyə hesabatları təqdim etməlidir.

Qeyd edək ki, namizədliyi qeydə alınan daha 4 nəfər sözügedən heabatı təqdim edib. Hesabatlarda namizədlər seçki fondlarının gəlir və xərclərini qeyd edilib.

Belə ki, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyevin hesabatında 20 min manat gəlir olduğu bildirilib.

Xüsusi vəsaiti 10 min, fiziki şəxslərdən də 10 min manat gəlir əldə etdiyini qeyd edib. Vəsaitin 15 min manatı seçici imzalarının toplanmasına yönəlmiş texniki tədbirlərin mliyyə təminatı, habelə seçici imzalarının toplanması üçün müvafiq şəxslərə haqq ödənilməsinə sərf edilib.

Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafanın maliyyə hesabatında 10 min manat gəlir olduğu bildirilib. Bunun namizədin xüsusi vəsaiti olduğu qeyd olunur. Vəsaitin 8 mini isə xərclərə sərf edilib.

Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayevin hesabatda fiziki şəxslərdən 1500 manat gəlir əldə etdiyini qeyd edib. Vəsaitin  min manatı seçici imzalarının toplanmasına yönəlmiş texniki tədbirlərin mliyyə təminatı, habelə seçici imzalarının toplanması üçün müvafiq şəxslərə haqq ödənilməsinə sərf edilib. Seçki günündə istifadə olunmamış qalıq məbləğ isə 500 manat kimi bildirilib.

Namizədliyi özü tərəfindən irəli sürülmüş. Fuad Əliyevin  maliyyə hesabatında iki min manat gəlir olduğu bildirilib. Bunun namizədin xüsusi vəsaiti olduğu qeyd olunur.

Qeyd edək ki, bundan əvvəl namizədliyi qeydə alınan 3 nəfərin hesabatı da açıqlanıb.

Xatırladaq ki, bu ilin fevalında Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək.

# Dövlət Komitəsindən dini icmalara: Ayıq-sayıq olun!

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Azərbaycandakı dini icmaları ayıq-sayıq olmağa çağırıb.***

“Unikal”ın məlumatına görə, o, “Dinin siyasiləşdirilməsi: zərərli təsirlər” mövzusunda konfransında çıxışı zamanı deyib ki, Azərbaycan dünyanı dağıtmaq istəyənlərə qarşı öz platformasını təqdim edir: ”Bu isə onların xoşuna gəlmir. Ona görə də Azərbaycanı sevmirlər”.

”Bütün dini icmaların nümayəndələrinə bir daha müraciət edirəm. Daha ayıq-sayıq olmalıyıq, birlik olmalıyıq. Ölkəmizdəki dini azlıqlara sual verirəm: Azərbaycan tarixində indiyədək dini azlıqlara bu cür azadlıq verilib? Şərait yaradılıb? Azadlıq anarxiya demək deyil, buna gətirib çıxarmamalıdır. Biz radikal qruplara imkan verməliyik ki, azlıqları dağıtsınlar?! Bu azadlıqdırmı? Azadlığın da həddi olmalıdır”.

# “Mətbuat Şurasında qaynar xətt yaradılacaq” - Rəşad Məcid

***“Mətbuatımızın çiyninə böyük yük düşür”. Bunu bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin prezident seçkilərində fəaliyyətinin əsaslarına həsr olunan müşavirədə Mətbuat Şurasının sədri Rəşad Məcid deyib.***

O bildirib ki, media xalqımızın tarixində əhəmiyyətli rol oynayacaq 7 fevral seçkilərində də böyük məsuliyyətlə iştirak edəcək: “Sosial mediada hansısa namizədlərə qarşı kompromatların olacağı şəksizdir. Peşəkar media bu hallara öz mövqeyini bildirməlidir. Seçki günü Mətbuat Şurasında qaynar xəttin yaradılması, Mətbuat Şurası üzvlərinin müxtəlif məntəqələrdə müşahidələr aparması bu seçkilərdə də davam etdiriləcək. 7 fevral da bir müddət sonra xalqımızın ən gözəl bayramlarından biri olacaq. Bütün dünya görsün ki, Azərbaycan xalqı seçki prosesinə biganə deyil. Buna görə də Azərbaycan mediası ən öndə getməlidir”.

# Etibar Pirverdiyevin şirkətindən şikayətlər səngimir

## Sabiq oliqarxa məxsus "Azenco" niyə məhkəmə iddiaları ilə üz-üzə qalıb?

***”Azenco” Açiq Səhmdar Cəmiyyəti məhkəməyə verilib. Sözügedən şirkəti məhkəməyə verən keçmiş işçisi Eyubov Ceyhun Əziz oğludur (valyuta.az).***

C.Eyubov məhkəmədə şirkət barəsində “Əmək mübahisələri - Əmək haqqı tələbi” iddiası qaldırıb.İş Bakı Şəhəri Xətai Rayon Məhkəməsinin hakimi Sahibə Hacıyevanın icraatındadır.

Xatırladaq ki, ”Azenco” uzun müddət enerji sektorundakı iri layihələri həyata keçirib, bu layihələrin baş podratçısı və subpodratçısı olub. ”Mərkəzi İstehsal Təmir” müəssisənin 2000-ci ildə özəlləşdirilməsi nəticəsində yaranan ”Azenco” Etibar Pirverdiyev ”Bakı elektrik şəbəkə” Açıq Tipli Səhmdar Cəmiyyətinin sədri postunu tutan dövrdən sürətlə böyüməyə başlayıb və enerji sektorundakı layihələrin həyata keçirilməsində faktiki olaraq inhisarçı şirkətə çevrilib. Şirkət xüsusilə ölkədə elektrik enerjisi stansiyalarının tikintisində əsas icraçı olub. O cümlədən ”Sumqayıt Elektrik Stansiyası”nın tikintisi layihəsində ”SIEMENS” şirkətinin, “Şimal-2” elektrik stansiyasının tikintisində “Mitsubishi Heavy Industries” , ”ABB” və ”Alstom” şirkətlərinin, “Cənub Elektrik stansiyasının tikintisində isə ”General Electric”şirkətinin yerli podratçısı kimi çıxış edir. Baş podratçı qismində ”Azenco” şirkəti Azərbaycanda müxtəlif gücdə 7 modul tipli elektrik stansiyalarının tikintisini həyata keçirib. Bu stansiyaların əsas avadanlıqlarının təchizatçısı Finlandiyanın ”Wartsila” şirkəti olub.



E.Pirverdiyevin ”vurulmasınadək” elektroenergetika sənayesinin bütün layihələrində iştirak edən ”Azenco” ”Dövlət Bayrağı Meydanı” və ”Bakı Kristal Hall” layihələrinin tikintisini də həyata keçirib. Sonradan bu layihələrin inşasında yeyintilərə yol verildiyi barədə iddialar ortaya çıxıb. Məsələn, Dövlət Bayrağı Meydanındakı dirək bir müddət sonra sökülməli olmuşdu. Həmin vaxt rəsmilər bunu ”küləyə davamlılıqda nöqsanların üzə çıxması ilə” izah etmişdilər. O da aydınlaşmışdı ki, Dövlət Bayrağı Meydanının tikintisinə və ətraf ərazidə bulvar zolağının uzadılmasına 3 il ərzində büdcədən 50 milyon manat sərf olunub. Bu 50 milyon manatlıq büdcə pulunun qarşılığında isə bayraq dirəyi cəmi 7 il duruş gətirə bilmişdi...

Onu da yada salaq ki, 2018-ci ilin sentyabrında E.Pirverdiyev ”Azərenerji”-nin prezidenti vəzifəsini itirdikdən sonra ”Azenco”ya yeni layihələrin verilməsi böyük ölçüdə dayandırılıb və şirkətin “qara günləri” başlayıb. Lakin bu prosesdən sözügedən şirkətin sahibindən daha çox sıravi əməkdaşları, fəhlələr əziyyət çəkiblər. Belə ki, şirkətdə xeyli sayda işçinin ixtisara salındığına dair xəbərlər yayılıb. Ardınca isə məlum olub ki, Pirverdiyev artıq işçilərinə əmək haqqı verməkdə də ciddi çətinliklərlə üzləşib. Elə ”Azenco”nun keçmiş işçisi Eyubov Ceyhun Əziz oğlunun məhkəmə iddiası da bu deyilənlərdə həqiqət payının böyük olmasından xəbər verir.

Xatırladaq ki, son vaxtlar Pirverdiyevin şirkətinə qarşı məhkəmə iddiaları ilə bağlı xəbərlərə mütəmadi rast gəlinir. Məsələn, ötən il “Mitsubishi Motors” avtomobil şirkətinin Azərbaycanda rəsmi və yeganə distribüteri olan ”Diamond Motors” MMC-nin (”Mitsubishi” Avtomobil Mərkəzi) “Azenco”ya qarşı Bakı Kommersiya Məhkəməsində iddia qaldırdığı məlum olmuşdu. Həmin vaxt bildirilirdi ki, işin mahiyyəti müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisəlidir.

Bundan başqa, ötən il ”Global Energy Solutions” MMC də ”Azenco ” ASC-ni məhkəməyə vermişdi. İddia əmr icraatı - müqavilə tələbi üzrə qaldırılmışdı.

Məlumatlara görə, Pirverdiyevin şirkətinə qarşı işçilərin əmək mübahisələri - əmək haqqı tələbi ilə bağlı da kifayət qədər şikayətləri var, bu səbəbdən də ”Azenco” ilə bağlı gələcəkdə yeni məhkəmə iddiaları istisna olunmur.

Bundan başqa, adıçəkilən ASC-nin müxtəlif vaxtlarda ayrı-ayrı sahibkarlara gördürdüyü işlərin müqabilində borclarının olduğu, belə sahibkarlardan bəzilərinin öz pullarını ala bilmədiyi yönündə də zaman-zaman mətbuatda xəbərlər gedib. Həmin xəbərlər də bir qayda olaraq Pirverdiyevin ”vurulmasından” sonrakı dövrdə intensivləşib. Lakin nə ”Azenco”, nə də onun qeyri-rəsmi sahibi olduğu bildirilən Pirverdiyev bütün bu iddialar, ittihamlar, şikayətlər barədə indiyədək hər hansı rəsmi açıqlama vermək ehtiyacı hiss etməyiblər. Ona görə də deyilənlər barədə qarşı tərəfin münasibəti qaranlıq qalır...

***Toğrul Əliyev***

***"Unikal" qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədə bugünkü məqaləmiz sabiq nazir müavini Arif Əsgərov haqqındadır.***

Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışıb. A.Əsgərov 2015-ci ildə prezidentin fərmanı ilə tutduğu vəzifədən azad edilib. Başqa bir fərmanla nəqliyyat nazirinin rəmə şirkəti "Bombardier Transportattion"un əməkdaşı olan Rusiya vətəndaşı Yevgeni Pavlovu həbs etmişdi. Bu şəxsin adı əvvəlcə açıqlanmamışdı, ancaq bildirilirdi ki, o və "Bombardier" şirkətinin bir neçə top-meneceri "Azərbaycan Dəmir Yolları" QSC ilə 2013-cü ildə bağlanmış müqaviləyə görə Azərbaycanın vəzifəli şəxslərinə külli miqdarda rüşvət verib. Müqavilə imzalanarkən "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tərkibində idi və bu struktura Arif Əsgərov rəhbərlik edirdi. Nəqliyyat naziri postunu isə Ziya Məmmədov 2017-ci ilin sentyabrında ləğv edilib.

"Unikal" bir müddət öncə yazmışdı ki, mənbələr hazırda sabiq nazir müavininin "biznes imperiyası"nın əvvəlki qüdrətindən çox uzaq olduğunu" vurğulayırlar.

Azərbaycan təcrübəsində bir çox iri məmurların vəzifələrini itirdikdən sonra bizneslərinin batmağa başlaması məlumdur. Səbəb sadədir: onlar yüksək post tutarkən həm əllərindəki təsir imkanları, rıçaqlar, həm də korrupsiya ilə qazanılmış böyük vəsaitlər hesabına ölkə daxilində və xaricində ailə üzvlərinin,

# Arif Əsgərovun yeni vəzifə ümidi...

## Sabiqlərin izi ilə: keçmiş nazir müavininin cəhdləri niyə nəticəsiz qalıb?



yaxınlarının adına şirkətlər təsis edir, geniş biznes şəbəkəsi qururlar. Lakin vəzifə əldən gedib "dəyirmanın suyu quruduqdan" sonra həmin biznes şəbəkəsi tədricən sıradan çıxır. Axı əldəki təsir imkanları, rıçaqlar və korrupsiya pulları artıq yoxdur! Belə görünür, eyni təcrübə Arif Əsgərovdan da yan keçməyib.

Onu da deyək ki, sabiq nazir müavini xaricdəki biznesi və haqqındakı mənimsəmə iddiaları ilə bağlı indiyədək hər hansı açıqlama verməyib. O həmin iddiaları təsdiqləməsə belə, təkzib də etməyib. Bundan başqa eks-müavin və oğulları məhkəmələrədək uzanan qalmaqallarla da yadda qalıblar.

müavini təyin olunub. Bu təyinatı alandan cəmi 2 il sonra, 2017-ci ildə, yəni Ziya Məmmədov postunu itirdikdən sonra o da vəzifəsiz qalıb.

Əsgərov xüsusilə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri vəzifəsində çalışarkən qısa müddətdə böyük sərvət sahibinə, eyni zamanda ölkənin ən qalmaqallı məmurlarından birinə çevrilib. Üstəlik, bu qalmaqallarda onun ailə üzvlərinin, yaxın qohumlarının da adı hallanıb. Bu sırada onun oğlu Elnar Əsgərovun və baldızı oğullarının adları keçən cinayət işi böyük rezonans doğurub. Sonuncular dələduzluqda günahlandırılaraq həbs olunublar. E.Əsgərov isə haqqındakı kifayət qədər ciddi ittihamlara baxmayaraq məsuliyyətə cəlb olunmayıb. Hətta onun həmin vaxt ölkəni tərk etdiyinə dair məlumatlar yayılmışdı.

E.Əsgərovun hazırda ölkə xaricində olduğu və atasının Azərbaycandan kənardakı biznesini idarə etdiyi deyilir.

A.Əsgərovun adı ətrafında başqa bir böyük qalmaqal isə 2017-ci ildə ortaya çıxmışdı. Həmin vaxt İsveç məhkəməsi Kanadanın beynəlxalq nəqliyyat infrastrukturu şirkəti olan "Bombardier"in bu ölkədəki tö-tuturdu. Ona görə də sözügedən qalmaqalla bağlı diqqətlər Məmmədovla yanaşı, Əsgərova yönəlmişdi.

Keçmiş nazir müavininin övladları ilə bağlı biznes iddiaları da daim gündəmdə olub. Onlardan birinin - Ürfan Əsgərovun adına eynilə E.Əsgərovla bağlı olduğu kimi xaricdə bir sıra şirkətlər mövcuddur.

1985-ci il təvəllüdlü E.Əsgərov hələ 20 yaşında ali təhsil üçün getdiyi İngiltərədə də şirkət açıbmış. 2005-ci ildə yaradılan və TYROLESE (579) LIMITED adlanan həmin şirkət Londonda qeydiyyatdan keçirilmişdi. İddialara görə, sabiq nazir müavini 2011-ci ilədək həmin şirkət vasitəsilə Azərbaycan üzərindən yükdaşımalardan böyük pullar əldə edib. Lakin son bir-iki ildə bu TYROLESE (579) LIMITED-in fəaliyyəti ilə bağlı da hər hansı məlumat yoxdur, hətta onun bağlandığı deyilir. Əsgərovların Londondakı başqa bir şirkəti isə AZTECSA LIMITED adlanırdı. Maraqlıdır ki, A.Əsgərovun digər oğlu, Kembric Universitetində beynəlxalq əlaqələr üzrə magistr təhsili almış Azər Əsgərova məxsus həmin şirkət də atası nazir müavini postunu itirdikdən cəmi bir neçə il sonra,

Ümumiyyətlə, Arif Əsgərov vəzifəsiz qaldıqdan sonra ortalarda, deməli olar, görünməyib. Hazırda 62 yaşı olan sabiq nazir müavininin bir qardaşı yüksək vəzifədədir. Söhbət 2016-cı ildən Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı postunu tutan Ayaz Əsgərovdan gedir.

59 yaşlı Ayaz Əsgərovun karyerasındakı yüksəliş məhz Arif Əsgərov "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri təyin olduqdan sonra başlayıb. Belə ki, 2006-cı ildə Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti başçısının müavini təyin edilən Ayaz müəllim 5 il bu postu tutub, 2011-2016-cı illərdə isə Qazax Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb. Qazaxdan sonra isə Yardımlıya təyinat alıb.

Bəzi iddialara görə, işsiz qaldıqdan bu yana keçən 6 illik müddətdə A.Əsgərov yeni vəzifə axtarışında olub, lakin korlanmış reputasiyası - həm "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, həm də nazir müavini olarkən adının qarışdığı çoxsaylı qalmaqallar, rüşvət, korrupsiya ittihamları səbəbindən onun bu istiqamətdəki cəhdləri nəticəsiz qalıb.

***Sənan Mirzə***

# "Prezident jurnalist əməyinə daim yüksək qiymət verib" - Əhməd İsmayılov



***Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi əzmkarlığı və qətiyyəti sayəsində zəfərlə başa çatmış Vətən müharibəsindən sonra ölkəmizdə və eyni zamanda regionumuzda yeni siyasi reallıqlar yaranmışdır. Azərbaycanın liderliyinin ön planda dayandığı bu reallıqlar xalqımızın tarixi arzularının həyata keçməsi, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpa olunması kimi vacib amillərlə şərtlənir.***

"Unikal" xəbər verir ki, bunu bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin prezident seçkilərində fəaliyyətinin əsaslarına həsr olunan müşavirədə Media İnkişaf Agentliyinin icraçı direktoru Əhməd İsmayılov deyib.

O bildirib ki, yeni mərhələ cəmiyyət həyatının bütün sahələrini əhatə etməklə ölkəmizdə dərinləşmiş islahatların davamlılığını, həyatımızın müasir dövrün dinamik inkişafına uyğunlaşdırılmasını və beləliklə, ölkəmizin tərəqqisinin daimiliyini təmin edir: "Qalib Azərbaycan hər bir soydaşımızın qürur yeri olmaqla yanaşı ölkəmizin qabaqcıl mövqeyini, beynəlxalq müstəvidə öz layiqli yerini tutmasını istəməyən qüvvələrin də planlarını alt-üst etməkdədir. Milli maraqlarımıza xidmət edən müstəqil medianın inkişafının dövlətin əsas prioritetləri sırasında dəyərləndirən Prezident jurnalist əməyinə daim yüksək qiymət vermiş, Azərbaycan həqiqətlərinin yerli və beynəlxalq auditoriyaya çatdırılmasında medianın rolunu xüsusi qeyd etmişdir. 2022-ci ildə Milli Mətbuat Günündə Şuşada ilk dəfə keçirilən beynəlxalq media forumuna müraciətində Prezidentin jurnalistlər qarşısında qoyduğu mühüm vəzifələr aktuallığını qoruyub saxlamaqdadır".

# ATİB-in prezident seçkiləri ilə bağlı bəyanatı

ATİB
AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TÜRKİYE BUSINESS ASSOCIATION

***Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı bəyanat verib.***

Bəyanat Birliyin İdarə Heyətinin ötən gün keçirilən iclasında İdarə Heyəti üzvləri tərəfindən yekdilliklə qəbul edilib. Bəyanat 2024-cü ilin fevral ayının 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlıdır: "2024-cü ilin fevral ayının 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında dəmir yumruq kimi birləşmiş xalqımız və qəhrəman ordumuz tərəfindən ərazi bütövlüyü təmin edilmiş ölkəmizin bütün ərazisində keçiriləcək, ərazi bütövlüyümüzü və suverenliyimizi bir daha təsbit edərək zəfər seçkiləri kimi Azərbaycanın siyasi tarixinə vəsiqə alacaqdır. 30 illik işğala son qoyulduqdan sonra doğma torpaqlarına qayıdan insanların ilk dəfə öz yurdlarında seçici olaraq səsvermədə iştirak edəcəyi bu seçkilər Azərbaycan dövlətçiliyinin tarixində yeni və parlaq bir dövrün başlanğıcı olacaq.

Məlum olduğu kimi dövlətimizin nail olduğu bu şanlı zəfərin müəllifi Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin keçiriləcək növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülüb və Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınıb.

Azərbaycan Respublikası və qardaş Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq xarakteri daşıyan ənənəvi dostluq, qardaşlıq və mehriban qonşuluq münasibətlərinin inkişafı istiqamətində dövlət siyasətinin həyata keçirilməsində, ölkəmizin və qardaş Türkiyə Respublikasının iş adamlarının daxil olduğu sahibkarlıq ictimaiyyətinin potensialını dövlətimizin və xalqımızın maraqları ətrafında birləşdirmək istiqamətində yarandığı 2004-cü ildən bəri əhəmiyyətli rol oynayan Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) 10 yanvar 2024-cü il tarixdə keçirilmiş İdarə Heyətinin iclasında İdarə Heyəti üzvləri tərəfindən yekdilliklə qəbul edilən qərara əsasən müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyini dəstəklədiyini qürur hissi ilə bəyan edir, bu tarixi seçkilərdə ona uğurlar arzulayır və keçiriləcək seçkilərin məntiqi nəticəsinin tariximizə parlaq bir səhifə kimi həkk olunaraq qüdrətli dövlətimizin və qalib xalqımızın sınmaz iradəsinin təzahürü olmasını diləyir. Uğurlar cənab Prezident!".

01_27 IYUI-QARA.qxd 1/11/2024 9:41 PM Page 11



# Bakının baş planı problemləri 2040-cı ilə qədər həll edə biləcəkmi...




***Nazirlər Kabineti "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nı təsdiq edib. Planda şəhərin nəqliyyat infrasturukturu, quruluşu, əhalisi barədə məlumatlar yer alıb. Növbəti 16 ili əhatə edən planın icrası üçün 93,6 milyard vəsaitin xərclənməsi nəzərdə tutulur.***

Planda nəqliyyatla bağlı bir sıra məsələlər öz əksini tapıb. Belə ki, paytaxtın mərkəzi ərazisində nəqliyyat sıxlığının azaldılması, şəhərin şərq və qərb hissələri arasındakı nəqliyyat yerdəyişmələri zamanı əsas nəqliyyat axınlarının mərkəzə daxil olmadan şəhərkənarı həlqəvi magistrallara çıxışlarının təmin edilməsi, habelə mövcud yolların perspektivdə ifrat yüklənmələrinin qarşısının alınması məqsədilə yeni alternativ yol infrastrukturlarının yaradılması nəzərdə tutulub.

2027-ci ilin sonunadək paytaxtın şimal giriş-çıxış nəqliyyat probleminin əsaslı həll edilməsi məqsədilə Bakı və Sumqayıt şəhərlərini birləşdirən yeni magistral avtomobil yolunun inşası planlaşdırılıb.

Plana əsasən, 2040-cı ilədək Bakı şəhərində küçə-yol şəbəkəsinin uzunluğunun təqribən 368,7 km artırılması gözlənilir. Bunlardan başqa ictimai nəqliyyat, velosiped yolları kimi məsələlər də planda öz yerini tapıb.

Maraqlıdır, Baş plan nəqliyyat sahəsində mövcud problemlərin həllinə kömək edəcəkmi?

Məsələ ilə bağlı Modern.az-a danışan nəqliyyat eksperti Elməddin Muradlı bildirib ki, Baş planın tərtibatında müəyyən qüsurlar nəzərə çarpır: "Baş planın hansı formada icra olunacağı, hansı qurumların burada səlahiyyətinin olacağı kimi məsələlər dəqiqləşəndən sonra bizi nələrin gözlədiyi aydın olacaq. Baş planın tərtibatında müəyyən qüsurlar da görürük. Müəyyən ərazilər sanki unudulub. Buna baxmayaraq, aidiyyəti qurumlar öz işlərini görürlər. Ərazilər yoxlanılır. Yeni yolların çəkilməsi burada suallar doğurur. O yolların çəkilməsi kifayət qədər xərc tələb edəcək".

E.Muradlı formal yanaşma olacağı halda, problemlərin həllinə 2040-a qədər nail olmağın çətin olacağını söyləyib: "Əsas hədəf kimi ictimai nəqliyyata diqqət artırılırsa, avtobusların, metroların sayı artacaq, metrobuslar yaradaılacaq. Bunlar özlüyündə mühüm hadisələrdir. Həqiqətən, bunlar yerinə yetirilərsə. Uzun illər görürük ki, söz üzərində kağız üzərində qalan layihələr var. Belə olmayacaqsa, Baş plana böyük ümidlər bəsləyə bilərik. Lakin yenə də formal yanaşmalar olacaqsa, çətin ki, bu problemlərin 2040-ci ilə qədər həllinə nail olaq".

Nəqliyyat üzrə ekspet Eldəniz Cəfərli Bakı şəhərinin yeni Baş planının nəqliyyat sahəsindəki problemləri həll edəcəyini düşünür: "Bakı şəhərinin yeni Baş planı nəqliyyat sahəsində olan problemlərin həllində əlbəttə ki, böyük rol oynayacaq. Yeni nəqliyyat qovşaqlarının, yeni yolların salınması planlaşdırılıb. Hətta dəmiryollarının, tramvay xətlərinin çəkilməsi məsələsi də var".

Nəqliyyat eksperti Baş planın yollarda tıxacın aradan qalxmasına da kömək edəcəyini vurğulayıb: "Yolların və tramvay xəttinin çəkilməsində əsas məqsədlərdən biri də tıxacların azaldılmasıdır. Buna nail olunacağını düşünürəm".

# Azərbaycanla Türkiyə fərdi məlumatların mühafizəsi sahəsində əməkdaşlıq genişləndirilir

***Elektron Təhlükəsizlik Xidmətində (ETX) Türkiyənin Fərdi Məlumatların Mühafizəsi Qurumunun nümayəndə heyəti ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə fərdi məlumatların mühafizəsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, qanunun tətbiq mexanizmlərinin hazırlanması, sahə üzrə kadr potensialının artırılması və cəmiyyətin maarifləndirilməsi istiqamətində iki ölkə arasında əməkdaşlıq imkanları müzakirə edilib. Qeyd olunan istiqamətlər üzrə hər iki ölkənin məsul qurumlarının birgə həyata keçirəcəyi tədbirlər müəyyən edilib. Türkiyənin Fərdi Məlumatların Mühafizəsi Qurumunun rəhbəri Faruk Bilir qeyd edib ki, Türkiyə və Azərbaycan arasında fərdi məlumatların mühafizəsi sahəsində əməkdaşlığın genişləndirilməsi ölkələr arasında sahə üzrə mövcudmünasibətləri daha da möhkəmləndirəcək.

ETX-nin rəisi Samir Rəsulov fərdi məlumatların mühafizəsinin ölkə üçün prioritet istiqamət olduğunu və Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nda müvafiq sahənin inkişafı üzrə geniş tədbirlərin müəyyən edildiyini qeyd edib. S.Rəsulov bildirib ki, iki ölkə arasında sahə üzrə əməkdaşlıq ölkəmizdə fərdi məlumatların mühafizəsinin gücləndirilməsinə töhfə verəcək.

Tərəflər arasında bu istiqamətdə görüşlərin mütəmadi olaraq keçirilməsi və əməkdaşlığın regional səviyyədə də davam etdirilməsi nəzərdə tutulur.

# Monopolistlərdən növbəti absurd...

## Həftənin sualı: ərzaq məhsulları niyə dünyada ucuzlaşır, bizdə isə bahalaşır?

***Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, qida məhsullarının beynəlxalq qiymətlərində aylıq dəyişiklikləri izləyən FAO Ərzaq Qiymətləri İndeksinin, 2023-cü ili 2022-ci ildəki səviyyəsindən təxminən 10 faiz aşağı bağlandığını açıqlayıb.***

FAO dekabr ayında şəkər qiymətlərinin azalması səbəbindən qlobal ərzaq qiymətlərinin 1,5 faiz azaldığını açıqlayıb.Qurumun yaydığı açıqlamaya görə, FAO-nun Ərzaq Qiymətləri İndeksi dekabr ayında əvvəlki ayla müqayisədə 1,5 faiz, 2022-ci ilin dekabr ayı ilə müqayisədə isə 10,1 faiz azalaraq orta hesabla 118,5 bənd təşkil edib.

Xatırladaq ki, FAO İndeksi dünya ərzaq məhsullarının qiymətləri üçün etalondur.

Braziliyada güclü istehsal tempi və Hindistanda etanol istehsalı üçün şəkər qamışından istifadənin azalması ilə əlaqədar olaraq şəkər qiymətlərinin düşməsi ilə Şəkər Qiyməti İndeksi dekabr ayında noyabr ayına nisbətən 16,6% azalıb.

İndeks dekabrda doqquz ayın ən aşağı səviyyəsinə düşüb, illik müqayisədə isə 9% artıb.

Bitki Yağı Qiyməti İndeksi aylıq müqayisədə1,4 faiz azalıb. Bu azalma palma, soya və günəbaxan yağlarının alışındakı durğunluğu əks etdirir. İndeks bütün 2023-cü ildə əvvəlki ilin səviyyəsindən 32,7 faiz aşağı düşüb.

Taxıl Qiyməti İndeksi buğda, qarğıdalı, düyü və arpa qiymətlərindəki artımla aylıq müqayisədə 1,5% artıb. İndeks 2023-cü il ərzində əvvəlki ilin səviyyəsindən 15,4 faiz geriləyib. Eyni dövrdə, FAO Süd Qiyməti İndeksi bayram mövsümü ərəfəsində Qərbi Avropada güclü daxili satışların dəstəkləndiyi kərə yağı və pendir üçün daha yüksək qiymət təklifləri ilə 1,6 faiz artıb. İndeks 2022-ci ilin dekabr ayı dəyərindən isə 16,1 faiz aşağı düşüb.

Bir sözlə, ötən il qida məhsullarının beynəlxalq qiymətləri 10 faiz aşağı düşüb. Lakin qəribədir ki, bu ucuzlaşma Azərbaycandakı supermarketlərdə, digər satış nöqtələrində müşahidə olunmur. Üstəlik, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda inflyasiya 9.4% olub. Yəni qiymət artımı, xüsusilə ərzaq inflyasiyası davam edib. Bu nonsensi, bu absurdu nə ilə izah etmək olar?

Bu mövzu ilə bağlı danışan Natiq Cəfərli bir müddət öncə bildirib ki, Azərbaycanda ərzaq qiymətlərinin enməməsinin səbəbi obyektiv və subyektiv səbəblərdən irəli gəlir.

Obyektiv səbəb odur ki, daxili istehsal azdır. Azərbaycan özünü ərzaq məhsulları ilə cəmi 25 faiz təmin edir, bir sözlə, böyük ölçüdə idxaldan asılıyıq.

Subyektiv səbəb isə idxal inhisarçılığıdır. Pərakəndə ticarətdə problem yoxdur, minlərlə mağazalar, şəbəkələr, müəyyən rəqabət var. Lakin məhz topdansatış qiymətlərinin tənzimlənməsi inhisarçılığa daha çox bağlıdır. Ənənəvi olaraq inhisarçılıq problemi həll edilməyindən bəlli sayda şirkətlər var ki, onlar ölkəyə məhsul gətirir və daxili bazarda sövdələşmə yolu ilə qiymətləri tənzimləyə bilirlər.

Başqa bir məqam da var - Azərbaycanda əhalinin alıcılıq qabiliyyətini nəzərə alsaq, ərzaq məhsullarında əlavə dəyər vergisinin 18 faiz olması məntiqli deyil. Bunu müəyyən qədər aşağı salmaq və qiymətlərin azalmasını təmin etmək təklif olunur.

Ümumilikdə, ölkədə ərzaq inflyasiyasının davam etməsində monopolizmin rolunu əksər ekspertlər dilə gətirirlər. İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri Eyyub Kərimli də bu yaxınlarda demişdi ki, ölkədə bəzi sahələr



üzrə inhisarçılıq davam edir. Sitat: "Ərzaq idxalı üzrə inhisarçıların təsirləri var, onlar bazarda qiymət məsələsinə müəyyən qədər diktə edirlər. Bəzi pərakəndə ticarət şəbəkələrinin bazar payı çoxdur, bu da əsasən şəbəkə marketləridir və onlar istədikləri qiymətləri tərtib edib, satırlar. Bu da sözsüz ki, müəyyən ucuzlaşmaya imkan vermir. Çünki onların monopolik bazarlarda payları çoxdur..."

Bir sözlə, idxalda inhisarçılığı aradan qaldırmağın zamanı yetişib. Bu sahədə monopolizm davam etdikcə, Azərbaycanda qiymətlərin aşağı düşməsini gözləmək sadəlövhlükdən başqa bir şey deyil. Digər tərəfdən, daxili istehsalda da rəqabətliliyi artırmaq, sahibkarlıq fəaliyyətinə süni maneələri tamamilə aradan qaldırmaq vacibdir. Yəni, həm idxalda, həm daxili istehsalda inhisarçılığa son qoyulmalı, bazar iqtisadiyyatının bütün tələbləri yerinə yetirilməlidir. Yalnız bu halda biz süni bahalaşmadan canımızı biryolluq qurtara bilərik.

***Toğrul Əliyev***

## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda azad sahibkarlıq üçün hansı şərait yaradılıb?

### Nazirlik: "Mövcud çağırışlar kontekstindən xarici investisiyaların Azərbaycana cəlbi xüsusilə böyük əhəmiyyət kəsb edir, xarici investisiyaların birbaşa təşviqini nəzərdə tutur".

***Biznes mühiti və sahibkarlığın inkişafına dəstək tədbirləri Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin "Ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq sahibkarlığın inkişafı sahəsində formalaşmış iqtisadi siyasət mövcud qlobal çağırışlar fonunda uğurla davam etdirilmiş və yeni keyfiyyət mərhələsinə qədəm qoyub.***

Davamlı inkişaf trendi nümayiş etdirən ölkəmizdə özəl sektorun inkişafı dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının daima mərkəzində olub və bu sahədə sistemli tədbirlər həyata keçirilib. Ölkədə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması tədbirləri ardıcıl olaraq davam etdirilir. Biznes mühitinin hüquqi bazasının təkmilləşdirilməsi, özəl sektorun dəstəklənməsi, vergi güzəştləri və subsidiyaların tətbiqi, institusional mexanizmlərin yaradılması, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar uğurla davam etdirilir. Bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir. Azərbaycanda sahibkarlıq inkişaf edir, onun ölkə iqtisadiyyatında rolu günü-gündən genişlənir və özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib. Dövlət başçısının müxtəlif tədbirlərdə çıxışları zamanı sahibkarların istək və təkliflərinə həssas münasibəti, ötən illər ərzində imzalanmış bir sıra fərman və sərəncamlar sahibkarlığın inkişafında xüsusi əhəmiyyət kəsb edir. Həyata keçirilmiş tədbirlər nəticəsində qeyri-dövlət bölməsinin ÜDM-də payı 86,5%-ə, məşğulluqda payı isə 78,1%-ə çatıb. Ötən illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılıb, sahibkarlığa dəstək mexanizmləri, o cümlədən dövlət maliyyə yardımı mexanizmi təkmilləşdirilib, dövlət-sahibkar münasibətləri inkişaf etdirilib, müasir çağırışlara uyğun olaraq sahibkarlara göstərilən elektron xidmətlərin sayı genişlənib. İslahat tədbirləri şəffaflıq, hesabatlılıq, rəqəmsallaşma, nağdsız dövriyyənin genişlənməsinə öz töhfəsini verərək, sahibkarlar üçün ümumi prosedurların sayının azaldılması, sərf edilən vaxta və xərcə qənaət edilməsi üçün səmərəli imkanlar yaradılmış, rəqabətə davamlı mühit formalaşdırılıb.

İqtisadiyyat Nazirliyindən "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, hazırda ölkə üzrə sahibkarlıq subyektlərinin 99,6%-i kiçik və orta sahibkarlıq subyektləridir və onların əlavə dəyərin yaradılmasında, ixrac, məşğulluq və investisiyalarda payı artır. Bununla belə, KOB-un sürətli inkişafı hökumətin qarşısında duran prioritet məsələlərdəndir. KOB-ların ÜDM-də və ixracda payının artırılmasına, gündəlik istehlak malları ilə təminatın əsasən kiçik və orta sahibkarlıq subyektləri vasitəsilə həyata keçirilməsinə nail olunmalıdır. Bunun üçün KOB-ların iqtisadiyyatda rolunun və rəqabət qabiliyyətinin, bilik və bacarıqlarının artırılması, maliyyə resurslarına və satış bazarlarına çıxışının genişləndirilməsi istiqamətində müxtəlif təşviq və dəstək mexanizmləri həyata keçirilir. KOB dostu ofisləri, KOB İnkişaf Mərkəzləri, KOB-lar üçün təhsil, elm, tədqiqat layihələrinin maliyyələşdirilməsi, "Startap şəhadətnaməsi"nin verilməsi buna misal ola bilər. Dövlət-biznes dialoqunun davamlı olaraq inkişaf etdirilməsi, özəl sektorun iqtisadi inkişafda rolunun artırılması prioritet məqsədlərdəndir. Dövlət-özəl tərəfdaşlığının daha da genişləndirilməsi məqsədilə Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, xarici ölkələrin iş adamları birlikləri, palatalar və sahəvi assosiasiyalar ilə sıx əməkdaşlıq qurulmuş və birgə tədbirlər həyata keçirilir. Bununla yanaşı, "İctimai iştirakçılıq haqqında" Qanunun tələblərinə uyğun olaraq əsasən mərkəzi və yerli icra hakimiyyəti, habelə yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarəti təşkil etmək üçün həmin qurumların nəzdində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının seçkili nümayəndələrindən ibarət İctimai şuralar yaradılmışdır. İctimai Şuranın xətti ilə ictimai müzakirələr, forumlar, dəyirmi masalar təşkil edilir, müxtəlif layihələrin icrası, maarifləndirmə, təlim proqramları və s. həyata keçirilir. Sahibkarların hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında və mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya şuraları fəaliyyət göstərir. Dövlət başçısının müvafiq Sərəncamı ilə ölkənin iqtisadiyyatında, məşğulluğun təmin olunmasında sahibkarların artan rolunu nəzərə alaraq, cəmiyyətdə sahibkarlığa dəstək əhval-ruhiyyəsinin artırılmasına təkan vermək məqsədi ilə hər il aprelin 25-i ölkəmizdə "Sahibkarlar Günü" kimi qeyd olunur. Azərbaycanın yeni strateji inkişaf mərhələsində milli iqtisadiyyatımızın innovasiya yönümlülüyünün və maliyyə dayanıqlılığının gücləndirilməsi, davamlı iqtisadi artım drayverlərinin fəallaşdırılması, azad edilmiş ərazilərimizin sürətli reinteqrasiyası və s. kimi məqsədlər hədəflənir. Sahibkarlıq fəaliyyətinin inkişafı üçün tənzimləmə və normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilib. Sahibkarlıq fəaliyyətinin inkişafı üçün tənzimləmə və normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin sahibkarlıq mühitinə mümkün təsirlərinin təhlili və qiymətləndirilməsi aparılıb, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir edəcək mühüm normativ hüquqi aktlar (o cümlədən "Lisenziyalar və icazələr haqqında", "Əlet azad iqtisadi zonası haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Mediasiya haqqında", "Qida təhlükəsizliyi haqqında", "Dövlət-özəl tərəfdaşlığı haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında", Dövlət satınalmaları haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunlar) qəbul edilib.



"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının (2022-ci il 22 iyun tarixli 551-VIQ nömrəli) Qanununda investisiya fəaliyyətinin hüquqi və iqtisadi əsaslarının müəyyən edilməsi, investorların hüquqlarının və qanuni maraqlarının qorunması, həmçinin investisiya fəaliyyəti sahəsində dövlət tənzimlənməsinin əsas prinsiplərinin və prioritetlərin müəyyən edilməsi nəzərdə tutulub. Qanun xarici investisiyaların cəlb edilməsi, ümumilikdə investisiya üçün əlverişli mühitin formalaşdırılmasına dəstək xarakteri daşıyır. Mövcud çağırışlar kontekstindən xarici investisiyaların Azərbaycana cəlbi xüsusilə böyük əhəmiyyət kəsb edir və bu baxımdan, xarici investisiyaların birbaşa təşviqini nəzərdə tutur. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının (2022-ci il 9 dekabr tarixli 691-VIQ nömrəli) Qanununda dövlət xidmətlərinin göstərilməsi, eləcə də həmin xidmətlərin göstərilməsi üçün infrastrukturun yaradılması və idarə edilməsi ilə bağlı dövlət-özəl tərəfdaşlığı layihələrinin icrasında dövlət, səlahiyyətli orqan, dövlət tərəfdaşı və özəl tərəfdaş, habelə iddiaçı arasında yaranan münasibətlərin tənzimlənməsi, dövlət-özəl tərəfdaşlığının əsas prinsiplərinin müəyyən edilməsi və dövlət-özəl tərəfdaşlığı layihələrində dövlətin iştirakının tənzimlənməsi nəzərdə tutulmuşdur. Bu Qanunun tətbiqi ilə dövlətin infrastruktur layihələri üzrə maliyyə yükü xeyli dərəcədə yüngülləşəcək, ölkəyə strateji xarici investorların cəlb edilməsi sürətlənəcəkdir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli Qanunu qəbul edilən, həmçinin qanuna dəyişikliklər edilməklə bir sıra sahələrdə yoxlamalar istisna olmaqla Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 1 noyabr 2015-ci il tarixindən 1 yanvar 2025-ci il tarixinədək dayandırılıb. Sözügedən Qanuna əsasən bu Qanun və onun əsasında qəbul edilmiş normativ hüquqi aktların tələblərinin pozulması ilə aparılan yoxlamaların hüquqi nəticəsi yoxdur.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Medianın seçkilərdə fəaliyyətinə dair müşavirə keçirilib

***Növbədənkənar prezident seçkiləri ilə əlaqədar müxtəlif istiqamətli maarifləndirmə layihələri intensiv şəkildə davam etməkdədir.***

Mərkəzi Seçki Komissiyası, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə yanvarın 11-də Bakı şəhərində bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin seçkilərdə fəaliyyətinin əsasları mövzusunda müşavirə keçirilib.

Layihənin gerçəkləşdirilməsində başlıca məqsəd media subyektlərinin Prezident seçkilərindəki sərbəst fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılıq səviyyəsinin yüksəldilməsindən ibarətdir.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov medianın seçki dövründə vəzifələrindən danışıb: "Medianı nə qədər tənqid etsələr də, Mərkəzi Seçki Komissiyası olaraq biz hər zaman deyirik ki, Azərbaycanda media digər ölkələrdən heç də geri qalmır. Azərbaycanda mətbuat mogikanları formalaşıb".

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib ki, 2022-ci ildə Milli Mətbuat Günündə Şuşada ilk dəfə keçirilən beynəlxalq media forumuna müraciətində Prezidentin jurnalistlər qarşısında qoyduğu mühüm vəzifələr aktuallığını qoruyub saxlamaqdadır: "İnanırıq ki, media seçki prosesini işıqlandırarkən peşəkarlıq nümayiş etdirəcək".

Audiovizual Şuranın sədri İsmət Səttarov Şura nəzərə çatdırıb ki, Audiovizual Şura audiovizual media sahəsində tənzimləməni həyata keçirən dövlət orqanı olaraq seçkiqabağı təşviqat dövründə də monitorinqlər həyata keçirir: "Televiziya və radio kanallarında seçkiqabağı təşviqatla bağlı Seçki Məcəlləsinin bütün tələblərinə əməl olunmasını da Şura daim nəzarətdə saxlayır"".

Mətbuat Şurasının sədri Rəşad Məcid səsvermə günü Mətbuat Şurasında qaynar xətt yaradılacağını, Mətbuat Şurası üzvlərinin müxtəlif məntəqələrdə müşahidələr aparacağını söyləyib.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvləri "Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqata dair ümumi tələblər, seçkiqabağı təşviqat subyektləri, onların hüquq və vəzifələri", "Ödənişli və ödənişsiz əsaslarla aparılan seçkiqabağı təşviqat prosesində media subyektlərinin rol və vəzifələri" mövzularında çıxış ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvü Fuad Cavadov seçkilərdə təşviqatla əlaqədar əsas məhdudiyyətləri açıqlayıb: "Xarici KİV, QHT-lər, kapitalının 30 %-i xarici şirkətə məxsus olan Azərbaycanda olan qurumlar da təşviqatla məşğul ola bilməz. Eyni zamanda təşviqat aparanlar və mətbuat orqanları ilə bağlı da məhdudiyyətlər var".

Təqdimatlar zamanı iştirakçılara, həmçinin seçki prosesinin ictimailəşdirilməsi, aşkarlığın və şəffaflığın təmin olunması, eləcə də seçkiqabağı təşviqat mərhələsində və səsvermə günü medianın rol və vəzifələri barədə də ətraflı məlumat verilib.

Təşkilatçı qurumların rəhbərləri və təmsilçiləri ilə yanaşı, aparıcı media subyektlərinin rəhbərləri və nümayəndələrinin də iştirak etdiyi müşavirə mövzular ətrafında fikir mübadiləsi və sual doğuran məsələlərin müzakirəsindən sonra öz işini yekunlaşdırıb.

01_27 IYUl-QARA.qxd 1/11/2024 9:41 PM Page 13





## Təbiətə 61 min manatdan çox ziyan vuruldu

***Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində respublikanın 4 şəhər və rayonunda qanunsuz ağackəsmə faktları ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyindən daxil olmuş məlumatlar və vətəndaş müraciətləri əsasında üzrə araşdırma aparılıb.***

Baş Prokurorluğun mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, araşdırmalar zamanı Bakı şəhəri, Nəsimi rayonunun Xan Şuşinski küçəsi və Azadlıq prospektinin kəsişməsində, Nizami rayonunun Keşlə qəsəbəsində meşə fonduna daxil olmayan, Qusar, Gədəbəy və Tovuz rayonu ərazisində isə meşə fonduna daxil olan, ümumilikdə 281 ədəd ağac və kolun qanunsuz kəsilməsi nəticəsində təbiətə 61 min manatdan çox ziyan vurulması müəyyən edilib.

Qeyd edilən faktlarla bağlı Cinayət Məcəlləsinin 259.1, 259.2.3, 259.2.4 və 259.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qulluq mövqeyindən istifadə etməklə, xeyli və külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) maddələri ilə cinayət işləri başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilib.

## Bir ailənin 6 üzvü qidadan zəhərlənib

***Bakının Xəzər rayonun Binə qəsəbəsində bir ailənin 6 üzvü qidadan zəhərlənib.***

TƏBİB-dən "Unikal"a bildirilib ki, bu gün saat 10:04 radələrində Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə qida zəhərlənməsi səbəbilə çağırış daxil olub.

Qeyd olunub ki, hadisə yerinə təcili tibbi yardım briqadası cəlb olunub və 6 nəfər müvafiq tibb müəssisəsinə hospitalizasiya olunub: "Onlardan 3 nəfər böyük (2-si qadın cinsli, 1-i kişi cinsli olmaqla) Sabunçu Tibb Mərkəzinə, digər 3 uşaq isə Mərkəzin nəzdində fəaliyyət göstərən Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasına yerləşdirilib. Hazırda onlara zəruri tibbi xidmətlərin göstərilməsi davam etdirilir, vəziyyətləri stabildir".

## Təcili yardımın getməməsinə görə şöbə müdirinə xəbərdarlıq edildi

***Abşeron rayonu, Masazır qəsəbəsi, Füzuli 49 ünvanından Ayan Aslanova üçün daxil olan çağırışla əlaqədar TƏBİB tərəfindən müvafiq araşdırma aparılıb.***

TƏBİB-dən "Unikal"a bildirilib ki, araşdırmanın nəticəsinə uyğun olaraq, Abşeron Rayon Mərkəzi Xəstəxanasının Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin çağırış üzrə tibb bacısı əmək müqaviləsi üzrə öhdəliklərini tam yerinə yetirməyərək işində yol verdiyi nöqsana görə əmək qanunvericiliyin tələblərinə uyğun olaraq barəsində intizam tənbehi növü olaraq töhmət verilib, həmçinin Təcili təxirəsalınmaz tibbi yardım xidmətinin göstərilməsindən tam kənarlaşdırılıb. Eyni zamanda həmin şöbənin müdirinə əmək funksiyasının icrası zamanı yol verdiyi nöqsana görə yazılı xəbərdarlıq edilib.

Kliniki Tibbi Mərkəzin Reanimasiya şöbəsində müalicə alan 15 yaşlı Ayan Aslanova Travmatologiya şöbəsinə köçürülüb. Vəziyyəti orta ağırdır, əməliyyat olunması nəzərdə tutulub.

# Biz hara gedirik?

***Təhsil nazirliyində işlədiyim dövrdə Kollegiya İclaslarında qəbul olunan qərarlar geniş müzakirələrə səbəb olurdu. İclaslarda ölkə təhsilinin inkişafı naminə Kollegiya üzvləri ilə yanaşı iştirakçıların da təklifləri dinlənilirdi. Mən 1993-1996-cı illərdə Bakı Dövlət Universitetinin rektoru olmuş rəhmətlik professor Murtuz Ələsgərovun Kollegiya iclasında çıxışının şahidi olmuşam. Kollegiya bütün nazirliklərin o cümlədən Təhsil nazirliyinin əsas orqanı olmalıdır. Kollegiallıq (lat. collegium - birlik, yoldaşlıq) - ümumi əhəmiyyətli işlərin bir qrup şəxslər tərəfindən ümumi (kollegiya) müzakirəsi və həlli; kollegial orqanın həyata keçirdiyi rəhbərlik metodu; təkbaşına idarəetmənin alternativdir.***



Təhsil nazirliyi hələ indiki kimi avtoritar idarəçilik görməyib. Demək olar ki, Kollegiya iclasları keçirilmir. Nazirliyin Kollegiyasının tərkibinin (üzvləri) kimlərdən ibarət olması da cəmiyyətə bəlli deyil. Təhsil sistemləri avtoritar idarəetmədən qaçırlar. Gözqamaşdırıcı bioqrafiya (Sorosun yaratdığı Macarıstandakı Mərkəzi Avropa Universiteti, Kolumbiya Universiteti) ilk baxışdan pis təəsurat bağışlamır. Ancaq ifrat dərəcədə avtoritar və xətti təfəkkürlə rastlaşanda dəhşətə gəlirsən. Təhsil aldıqları ölkələrin universitetlərindəki dəyərlərin birini belə xatırlamırlar. Ali məktəblərin idarəçiliyini, maliyyəsini tamamilə əllərinə alıblar, Universitet Elmi Şuralarında müzakirə olunan məsələlərə nəzarət edirər, kollecləri tamam sıradan çıxarıblar, orta məktəbə laborantı da özləri təyin edir, məktəb qrantlarını özləri idarə edirlər. Bir nəfərə iki böyük vəzifə verir. Açıq-aşkar dövlət idarəçiliyinin prinsiplərinə saymamazlıq edir. Qərb təfəkkürü belə olur? Bu nəsə başqa şeydir. Vaxtilə ölkə ali təhsilinin flaqmanları olan Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Neft və Sənaye Universiteti kollec səviyyəsinə düşüb. Elm və təhsil nazirinin müavinlərini cəmiyyət tanımır. Bunların hər biri bir neçə sahənin kuratorudur. Deyir ki, sinifdə 40 şagirdin olmasının keyfiyyətə təsiri yoxdur. Təkcə bu ağılsız fikir olsaydı, dərd yarı olardı. Ardınca üzərində xeyli vaxt sərf edib yaratdığı qruplaşma onun müdafiəsinə qalxır. Sinqapurla müqayisə aparırlar, pedaqoji prinspləri ayaq altına atırlar. Sinif üzü görməyənlər və müqayisə tədqiqatlarının əlifbasını bilməyənlər cəmiyyəti çaşdırırlar. Obama Amerika Birləşmiş Ştatlarında "İlin müəllimi"ni təltif edəndə həmin şəxs maraqlı bir fikir söylədi: "Biz təhsilin keyfiyyətində çoğrafiya faktorunu aradan qaldırmalıyıq." Bakıda yaşayan 1000-lərə şagirdin adı rayon və kənd məktəblərində gedir. Burada repetitor yanındadırlar. Dövlətimizin başçısı cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Regionlarda və Bakı şəhərində 100-lərə Avropa standartlarına uyğun məktəblər inşa olunub. Bu nəcib işlər həm də şagird sıxlığının aradan qaldırılması məqsədilə görülür. Dövlət Xalqın savadlanması naminə bütün zəruri işləri görür. Bu faydalı işlərin müqabilində yuxarı sinif şagirdləri demək olar ki, dərslərə gəlmirlər.

Sinqapurda, Finlandiyada şagird qiymətlərinin şişirdilməsi olur? Fakt: 2021/2022-ci tədris ilində Gəncədə attestat qiymətləri "əla" olan şagirdlərin 16 faizi 0-200 bal toplayıb, 500-dən yuxarı nəticə göstərənlər isə 26 faiz olub. Gədəbəydə attestat qiyməti "əla" olan şagirdlərin 15,34 faizi, Goranboyda 23,5 faizi, İmişlidə 18 faizi, Qazaxda 12 faizi, Lerikdə 29 faizi, Lənkəranda 9 faizi, Salyanda 13 faizi, Tərtərdə 19,5 faizi, Tovuzda 15,5 faizi, Sumqayıtda 5,6 faizi 0-200 bal toplayıb və s. Hər ölkənin Orta təhsilinin məqsədləri var və yorulmadan, usanmadan hədəfə çatmaq üçün hər gün çalışırlar. Biz isə hələ də Orta təhsilin məqsədlərini müəyyənləşdirə bilməmişik. Nazirdən sitat: "Biz 10-11 siniflərin məzmununa yenidən baxmalıyıq. Düşünməliyik və müzakirə aparmalıyıq ki, 10 və 11 -ci siniflər nə üçündür?" Dördüncü Sənaye İnqilabının Cəmiyyətində Orta təhsilin məzmununda hələ də rasionallıq yoxdur. Sadəcə bir şeyi xatırlamaq istəyirəm: XXI əsrdə yaşayırıq və belə təfəkkürə görə bizə gülürlər.

*Milli Məclisin deputatı*
*Etibar Əliyev*

***P. S. Sinqapurla şagird sıxlığını müqayisə edənlərin nəzərinə bir məsələni də çatdırmaq istəyirəm. Azərbaycanda 4500 Ümumtəhsil məktəbləri fəaliyyət göstərir. Sinqapurda isə bu tip məktəblərin sayı 359-dur. Bunlardan 185-i İbtidai, 174-ü isə Orta məkəblərdir və siniflər üzrə şagird sıxlığı 33-34 nəfərdir.***

# Qadınların pensiya yaşı artırılır

***"Əmək pensiyaları haqqında" qanuna əsasən, qadınların pensiyaya çıxma yaşı bu il 6 ay artırılacaq.***

İndiyə qədər qadınlar 63 il 6 ayında pensiyaya çıxa bilirdilər. 2024-cü ilin iyulun 1-dən pensiyaya çıxmaq istəyən qadınlardan 64 yaşının olması tələb ediləcək. Qanuna əsasən, qadınlar 2024-cü ilin iyulun 1-dən 2025-ci ilin iyunun 30-na kimi 64 yaşında pensiyaya çıxa biləcək.

Yaşı uyğun gələn şəxslərin pensiyaya çıxa bilməsi üçün iki şərtdən biri ödənilməlidir. Pensiya yaşına çatan şəxslərin ya pensiya kapitalı minimum pensiya kapitalından (hazırda 40 320 manatdır - red.) çox olmalı, ya da ən azı 25 il



sığorta stajına sahib olmalıdırlar.

Pensiya kapitalı anlayışı iki hissədən - fərdi uçot sistemində yığılan pensiya kapitalından və güzəşt müddətinə görə hesablanan əlavə pensiya kapitalından ibarətdir.

Qeyd edək ki, əlavə stajların hər ilinə görə 306 manat (bu məbləğ inflyasiyaya uyğun olaraq hər il artırılır - red.) pensiya kapitalı hesablanır. Əlavə staja görə kapital da hesablandıqda pensiya yaşına çatan bu şəxsin pensiyası 347,22 manat yox, 388,16 manat təşkil edəcək.

Xatırladaq ki, "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.

01_27 IYUl-QARA.qxd 1/11/2024 9:41 PM Page 14



# Ən çox sosial müavinət kimlərə verilir?

***Sosial müavinətlər- onları pensiya adlandıranlar da var. Lakin sosial müavinətlər və pensiyalar məqsədlərinə və digər xüsusiyyətlərinə görə bir-birindən kəskin fərqlənir. Pensiyalar əməkhaqqı və digər gəlirlərin kompensasiyası xarakteri daşıyır.***

Bu baxımdan da pensiya kapitalı və sığorta stajına əsaslanır. Sosial müavinətlər isə qanunla müəyyən edilmiş qaydada ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə ödənilir. Onun növləri genişdir. Həmçinin pensiya hüququ yaranmayan şəxslər sosial müavinətlə əhatə olunurlar.



Sosial müavinətlər birdəfəlik və aylıq olaraq təsnif olunurlar.

Birdəfəlik müavinələrə:

-Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət;

-Uşağın anadan olmasına görə müavinət;

-Dəfn üçün müavinət;

-Cəza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə müavinət;

-Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara ilk dəfə işə düzələn zaman ödənilən birdəfəlik müavinət;

-Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssisə ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün müavinət aiddir.

Bunlardan cəza çəkməkdən azad edilmiş və valideynlərini itirmiş, həmçinin valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı olan müavinətlər barədə ictimaiyyətin daha az məlumatlı olduğunu desək, yanılmarıq. Cəza çəkməkdən azad edilmiş tibbi və sosial yardıma ehtiyacı olan şəxslərə penitensiar müəssisələri tərəfindən verilən arayış təqdim edildikdə minimum aylıq əməkhaqqının dörd misli məbləğində (hazırda 1380 manat) birdəfəlik müavinət ödənilir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar isə ilk dəfə işə düzəldikdə ölkə üzrə orta aylıq əməkhaqqının beş misli (hazırda 4605,5 manat) qədər müavinətlə təmin edilirlər.

Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət 300 manatdır. Uşağın anadan olmasına görə isə 500 manat verilir.

Dəfn üçün müavinətə gəlincə, dövlət qulluqçularına ömürlük, yaşa, əlilliyə və ailə başçısını itirməyə görə verilən müavinətlərdən biri təyin edilmiş, işsizlikdən sığorta ödənişini alan və sığortaolunan şəxslər vəfat etdikdə bu məbləğ 500 manat, əmək pensiyaçıları vəfat etdikdə əmək pensiyasının minimum məbləğinin üç misli məbləğində ödəniş həyata keçirilir.

Aylıq müavinətlərə isə:

-Yaşa görə müavinət;

-Əlilliyi olan şəxslərə əlilliyə görə müavinət;

-Ailə başçısını itirməyə görə müavinət;

-Dövlət qulluqçularına ömürlük müavinət;

-Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına müavinət;

-Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət;

-Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət;

-Beşdən çox uşağı olan qadınlara müavinət;

-Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə aylıq müavinətlər;

-Övladlığa götürülən uşağa, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə müavinətlər;

-Vəfat etmiş Azərbaycanın keçmiş Prezidentinin arvadına (ərinə) və ya öhdəsində olan uşağına ödənilən müavinət;

-Üç yaşınadək uşağa qulluğa görə müavinət daxildir.

Əmək qabiliyyəti olmayan şəxslərin əmək pensiyası hüququ olmadıqda və işləmədikdə yaşa görə sosial müavinəti ala bilərlər. Bu müavinətin aylıq məbləği 220 manatdır.

Həmçinin əlilliyi müəyyən edilmiş şəxsin əmək pensiyası hüququ olmadıqda ona əlilliyə görə müavinət təyin edilir. Bu müavinətin məbləği əlilliyin faizindən asılı olaraq 150-270 manat arasında dəyişir.

Ailə başçısını itirməyə görə pensiya hüququ olmayan şəxslər bu adda sosial müavinətlə təmin edilirlər. Belə müavinətin məbləği 120 manatdır.

Dövlət qulluqçuları pensiya yaşına çatdıqda və ya əlilliyinə görə könüllü işdən çıxdıqda əmək pensiyası almaq hüququna malik olmadıqda ömürlük müavinətlə təmin olunurlar. Müavinətin məbləği dövlət qulluqçusunun axırıncı əsas vəzifəsi üzrə işdən çıxdığı aydan əvvəlki 12 təqvim ayının orta aylıq məvacibinə əsasən müəyyən edilir.

Həmçinin şəxs müddətli həqiqi hərbi xidmətdə olduqda onun uşaqlarına aylıq 120 manat müavinət verilir. Uşaqlardan bəsh etdikdə, onu da deyək ki, ünvanlı sosial yardım alan ailələrin 1 yaşınadək övladları üçün əlavə aylıq 100 manat müavinət ödənilir.

Aylıq müavinətlərin siyahısından da məlum olduğu kimi, müavinətlərin bir hissəsi uşaqlara qulluğa görə verilir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına 120 manat, 5-dən çox uşağı olan qadınlara hər uşağa görə 105 manat, həmçinin övladlığa götürülən uşağa görə 200 manat, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə 600 manat müavinət ödənilir. Eyni zamanda, bir yaş yarımadək uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinətin məbləği 44 manat, bir yaş yarımdan üç yaşınadək uşağa qulluğa görə isə həmin müavinətin məbləği 28 manat təşkil edir.

Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisinə minimum aylıq əməkhaqqının əmək qabiliyyətinin itirilmə faizi məbləğində müavinət verilir. Göstərilən səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə isə minimum aylıq əməkhaqqı məbləğində müavinət ödənilir. Vəfat etmiş keçmiş Prezidentin arvadına (ərinə) və ya öhdəsində olan uşağına ödənilən müavinətə gəlincə, bu məbləğ keçmiş Prezidentə ödənilməli olan aylıq pensiyanın 50 faizi həcmindədir.

Əmək pensiyalarından fərqli olaraq, sosial müavinətlər hər il indeksləşdirilərək artırılmır. Müavinətlərin məbləği ölkə başçısının müvafiq sərəncamı ilə müəyyən edilir(qafqazinfo).

# Vətənə sevgi payı...

***Masallının Ərkivan qəsəbəsində dünyaya göz açan Sahib Yusif oğlu Şirəliyev uşaqlıqdan doğma Azərbaycana məhəbbət duyğuları ilə boya-başa çatdığına görə onun müqəddəs bir parçası olan Qarabağımızın erməni dığaları tərəfində işğala məruz qalmasına heç dözə bilmirdi.***



Elə hərbiçi olmağı da düşməndən qisas almaq arzusundan irəli gəlirdi. Odur ki, o, orta təhsilini başa vurub 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Yaxşı oxuyur, düşmənə qələbə çalmaq üçün hərbin sirlərinə mükəmməl yiyələnir.

Ürəyi Vətən sevdalı, həmişə millətinin şərəfini düşünən Sahib Yusif oğlu 2017-ci ildən Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlı zabiti vəzifəsində hər qarış torpağına, daşın vurğun olan Azərbaycanın keşiyində durur. Bilik və bacarığı, yüksək döyüş hazırlığı sayəsində bu müqəddəs işin öhdəsindən şərəflə gəlir, böyük komandirlərin etimadını doğruldur. Eləcə tabeliyində olan əsgərlərə qayğı göstərir, onların dərin hörmətini qazanır. Və maqamı gələn anda Vətən, millət yolunda canından keçməyi özünə şərəf bilir. Nümunəvi xidmətinə görə dəfələrlə fəxri fərman və diplomlarla təltif edilir.

2020-ci sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başlayanda baş leytenant Sahib Yusif oğlu Vətənə məhəbbət, düşmənə nifrət ruhunda döyüş meydanına girir. Dığalara vurduğu sarsıdıcı zərbələri ilə ilk gündən cəsurluğunu də təsdiq edə bilir. Hər dəfə atıldığı ağır savaşlardan zəfərlə çıxır, şəxsi heyətə nümunə olmaqla onları qələbəyə doğru aparır.

Baş leytenant oktyabrın 11-də Hadrut istiqamətində döyüşlərə qatılır. Rayonun azadlığı uğrunda eləcə onu nəzarətdə saxlayan vacib yüksəkliyin alınmasında xüsusi qəhrəmanlıq göstərir. Belə ki, rəhbərlik etdiyi əməliyyatdan sonra burada hər şey ordumuzun xeyrinə dəyişir. Vuruşmağa cəsarəti çatmayan düşmən xeyli sayda canlı qüvvə itirməklə silah-sursatını qoyub qaçmağa üz tutur. Daha sonra igid döyüşçü Tuğ, Qarabulaq kəndlərini, eləcə ərazidəki yüksəkliyi işğaldan azad etməkdə, Laçın dəhlizində şiddətli müharibədə yağıya qan qusdurur. Yaxşı vuruşmaqla bərabər, həm də döyüşçü yoldaşlarına mənəvi dayaq durur. Həmişə deyir: "Torpaq mərd igidlərin çiynində Vətən olur. Hər qarış torpağımız müqəddəsdir. Düşmən ayağı onun halallığını pozur. Onun bir qarışı belə yağı tapdağında qalmasın gərək. Məhz buna görə savaşımız haqdır, qələbə bizimlədir."

Şuşa-Laçın yolunun 6-7 kilometrliyində savaşda baş leytenant Sahibin yüksək döyüş məharəti sayəsində düşmənin xeyli canlı qüvvəsi və hərbi texnikası məhv edilir. Lakin bu qəhrəman Vətən sevdalısının son döyüşü olur. Özü getsə də, torpağa axıtdığı qan qəlbə bayrağımıza dönür. Ömrünün 25 ilində canını Vətənə qurban verən baş leytenant Sahib Yusif oğlu noyabrın 14-də doğulduğu Ərkivan qəsəbəsində torpağa tapşırılır. Əbədi ürəklərə köç edən, ölümsüzlüyə qovuşan qəhrəman "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" Şuşanın, Laçının azadlığına görə medalları ilə təltif edilir.

Şəhidin atası Yusif kişi deyir: - Sahibin həyat yolu qısa oldu, qaldı ki, o, öz Vətəni, xalqı üçün yaşadı. İndi oğlumla bütün Azərbaycan fəxr edir. Sahib uşaqlıqdan hərbi-vətənpərvərlik verilişlərinə həvəslə baxırdı. İllər ötdükcə onda bu peşəyə maraq artdı və hərbiçi olmağa qərar verdi. Çətinliyinə baxmayaraq, Sahib hərbiçiliyi şərəfli, əsl kişi səneti bilirdi. Müharibə başlayan gündən qəhrəman kimi döyüşdü, Vətənini yaşatmaq üçün şəhidlik zirvəsinə ucaldı.

"Oğlumuza toy etmək istəyirdik, amma qismət olmadı. Bəyəndiyi qız da vardı. Sahib cəbhəyə gedəndə nigaran idim, dua etməkdən başqa əlacım qalmamışdı. Nələr ürəyimizdən keçirdi, nələrlə qarşılaşdıq, - bu fikirləri anası Şölə xanım söyləyir.

Məlumat üçün bildirək ki, şəhidin qardaşı Əli hərbiçidir. Bakı Dəmir Yolu Nəqliyyatı Texnikumunu bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Daxili Qoşunların tərkibində əsgərliyi başa vurandan sonra müddətdən artıq xidmətini davam edir. Qardaşı ilə son danışığını belə xatırlayır: "Dedi ki, ailədən muğayat ol! Qismətində şəhidlik varmış. Həm qardaşım, həm də yaxın dostum idi. Bir-birimizə çox alışmışdıq...".

***Zəfər Orucoğlu, AJB üzvü***

01_27 IYUl-QARA.qxd 1/11/2024 9:41 PM Page 15



# Qriqoryanın ofisi komissiyaların iclası barədə məlumat yaydı



***Yaxın vaxtlarda Ermənistan və Azərbaycan arasında dövlət sərhədinin demarkasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların iclası keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan baş nazirinin müavini Mher Qriqoryanın ofisi məlumat yayıb.

"İlkin razılaşma var, amma konkret tarixlər hələ dəqiqləşdirilməyib. Gün və yerlə bağlı hələ də dəqiq razılaşma yoxdur", - məlumatda deyilir.

Qeyd edək ki, bu, komissiyaların sayca 6-cı iclası olacaq.

***Ağarza Elçinoğlu***

# "Bizi hər tərəfdən sıxırlar" - Putin



***"Rusiya iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Avropada birinci, dünyada isə beşinci oldu".***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin iş adamları ilə görüşündə deyib.

"Görünür, bizi hər tərəfdən boğur, sıxırlar, amma ümumi iqtisadiyyata görə Avropada birinciyik. Biz ADR-i üstələdik və dünyada 5-ci yeri tutduq: Çin, ABŞ, Hindistan, Yaponiya, Rusiya. Biz Avropada bir nömrəyik", - Putin bildirib.

***Ağarza Elçinoğlu***

# Zelenski Estoniyaya getdi



***Ukrayna lideri Volodimir Zelenski Estoniyanın paytaxtı Tallinə səfər edib.***

"Unikal" xəbər verir ki, bu barədə Estoniya prezidentinin ofisi açıqlama yayıb.

Bildirilir ki, Zelenski Estoniya rəsmiləri, o cümlədən parlamentin spikeri Lauri Hussar və baş nazir Kaja Kallas ilə görüşəcək.

"Zelenski parlamentdə də çıxış edəcək. Görüşlərdə onlar Rusiya ilə gələcək qarşıdurma, Ukraynaya uzunmüddətli, daimi və effektiv dəstək barədə danışacaqlar ", - məlumatda deyilir.

***Gülayə Mecid***

# Qadın polkovnikin gizləndiyi bina vuruldu



***İsrail ordusunun Qəzza zolağında binaya endirdiyi zərbə nəticəsində terrorçu Vəfa Samir əl-Bas ölüb.***

"Unikal" xəbər verir ki, bu barədə İsrail mətbuatı məlumat yayıb.

Bildirilir ki, Fələstin Muxtariyyətinin təhlükəsizlik qüvvələrinin polkovniki olan Vəfa sözügedən binada gizlənibmiş.

# Avropa Şurası baş katibini dəyişəcək

***Avropa Şurasının hazırkı Baş katibi, Xorvatiya nümayəndəsi Mariya Peyçinoviç-Buriç vəzifəsindən gedə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə "European Truth" qəzeti öz mənbələrinə istinadən məlumat yayıb.

Nəşrin məlumatına görə, AŞPA-nın yay sessiyasında seçiləcək qurumun yeni baş katibi oktyabrda işə başlamalıdır. Bildirilir ki, hazırda Buriçin yerinə namizəd axtarılır.

# "HƏMAS-ı tamamilə sıradan çıxarmaq mümkün deyil" - Blinken

***ABŞ dövlət katibi Antoni Blinken İsrail rəsmiləri ilə görüşdə "HƏMAS-ı tamamilə aradan qaldırmağın mümkün olmadığını" deyib.***



"Unikal" xəbər verir ki, bu barədə İsrailin "Kanal 13" telekanalı məlumat yayıb. Bildirilir ki, Blinken dövlət rəsmilərinə Qəzza zolağındakı müharibənin tez başa çatması üçün ABŞ-nin ikili dövlət planını təqdim edib. Lakin rəsmilər bu layihəni dəstəkləməyib.

Həmçinin, Blinken nazirlərə "Sizin arzularınız olduğu kimi, fələstinlilərin də arzuları var. Siz bunu qəbul etməlisiniz" deyib. Buna cavab olaraq İsrailin strateji işlər naziri Ron Dermer İordan çayının qərb sahilindəki fələstinlilərin 85 faizinin HƏMAS-ın oktyabrın 7-də həyata keçirdiyi hücumu dəstəklədiyini bildirib.

Qeyd edək ki, Yaxın Şərq turu çərçivəsində Türkiyə, İordaniya, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İsrail və işğal altındakı İordan çayının qərb sahili və Bəhreynə gedən Blinkenin Misirə də səfər etməsi gözlənilir.

***Gülayə Mecid***

# "Pedofiliya adası" qalmaqalında Türkiyə detalı - Azyaşlı qızları...

***ABŞ-də cinsi istismar və fahişəlik şəbəkəsi yaratmaq ittihamı ilə həbs edilən və həbsxanada ölü tapılan milyarder Ceffri Epsteinin qızlara qarşı cinsi istismar şəbəkəsi yaratdığı "pedofiliya adası" qalmaqalında yeni iddialar gündəmə gəlib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Epsteinin şəxsi pilotu, keçmiş model Nadya Marchinkonun dindirilməsində Türkiyə detalı diqqət çəkib. Məlum olub ki, Epstein Türkiyədən qızları qaçıraraq Amerikaya gətirirmiş.

"Qızlar Türkiyədən ABŞ-yə qaçaq yolla aparılırdı", Nadya ifadəsində bildirib.

Bu, 1999-cu il İzmit (Türkiyə şəh -red.) zəlzələsindən sonra bölgəyə gələn ABŞ-nin keçmiş prezidenti Bill Klintonun ölkəsinə qayıtmasından sonra bəzi uşaqların itdiyi iddiası yenidən gündəmə gətirib.

1999-cu il zəlzələsindən sonra itən uşaqlar qaçaqmalçılıq yolu ilə ABŞ-a aparılıb? Epstein işi ilə bağlı dəhşətli iddia

Belə ki, Epstein haqqında üzə çıxan dosyedə onun azyaşlı qızlara təcavüz etdiyi və mərasim kimi toplantılar keçirdiyi iddia edilir. Görüşlərdə iştirak edənlər arasında ABŞ-nin keçmiş prezidenti Bill Klinton, Leonardo Di Kaprio, Stiven Hokinq, Brüs Uillis, Kevin Spasi və Maykl Cekson kimi adlar da var.

1999-cu il zəlzələsindən sonra itən uşaqlar qaçaqmalçılıq yolu ilə ABŞ-a aparılıb? Epstein



işi ilə bağlı dəhşətli iddia

Epsteinin həbsxanada intiharından (2019-cu il, 10 avqust) sonra zərərçəkmişlərin açdığı iddialar davam edərkən, ABŞ-nin Nyu-York dairəsinin hakimi Loretta Preskanın qərarı ilə yüzlərlə sənədin məxfilik qərarı ləğv edilib.

***Gülayə Mecid***

# "Bayden iki cümləni birləşdirə bilmir" - Tramp

***"Bayden iki cümləni birləşdirə bilmir".***

"Unikal" xəbər verir ki, bunu ABŞ-nin keçmiş prezidenti Donald Tramp deyib.

Eks-prezident qeyd edib ki, buna baxmayaraq Bayden Amerikanı nüvə silahı ilə təmsil edir.

O, Rusiya və Çin liderləri Vla-



dimir Putin və Si Cinpini çox ağıllı və hiyləgər insanlar adlandırıb: "Putin və Xi çox ağıllı insanlardır. Media mənim onların ağıllı olduğunu dediyimə nifrət edir, amma sizə deyim ki, onlar çox ağıllı və çox hiyləgərdirlər".

***Ağarza Elçinoğlu***

# Mukuçyan və daha bir polis mayoru axtarışa verildi

***Moskva vilayətinin cinayət axtarış idarəsinin rəisi Mukuçyan və onun "qətl" şöbəsinin rəisi Konovalov Sankt-Peterburqda yoxa çıxıblar.***

"Unikal" Rusiya mətbuatına istinadən xəbər verir ki, mayorlar məzuniyyətdən sonra işə çıxmayıblar.

Hazırda onların qaçdığı iddia olunur. Çünki ötən ilin sonunda təhlükəsizlik qüvvələri onların mənzillərində axtarış aparıb. Axtarış zamanı onlardan biri təcili xəstəxanaya, ikincisi isə dərhal məzuniyyətə gedərək yayınıblar. Polislər dələduzluqda şübhəli bilinir və İstintaq Komitəsi artıq cinayət işi açıb.

Mukuçyan və Konovalov axtarışa verilib.

***Ağarza Elçinoğlu***



01_27 IYUl-QARA.qxd 1/11/2024 9:41 PM Page 16



# "Fənərbağça"dan darmadağın

***Futbol üzrə Türkiyə Superliqasında XVI turdan təxirə salınmış növbəti oyunlar keçirilib.***

İkinci oyun günündə daha dörd qarşılaşma baş tutub. Günün ilk matçlarında "Hataysppor" "Qaziantep"lə qolsuz,"Adana Demirspor" isə "İstanbulspor"la 2:2 hesablı heçheçə edib. "Karagümrük" "Kayserispor"a qalib gəlib - 4:1.



Digər oyunda isə "Fənərbağça" doğma meydanda "Konyaspor"u darmadağın edib. Səkkiz qolun vurulduğu görüşdə meydan sahibləri inamlı qələbə qazanıblar - 7:1. İstanbul nəhənginin heyətində Edin Ceko het-trik edib. Digər qolları isə Mert Müldür, Sebastian Şimanski, Mişi Batşuayi və Uğurcan Yazqılı (avtoqol) vurublar. Qonaqların heyətində isə Gilyerme fərqlənib.

Bu qələbə ilə xallarını 50-yə çatdıran "Fənərbağça" ilk pillədəki mövqeyini qoruyub. İkinci sırada 47 xala malik "Qalatasaray" qərarlaşıb.

# "Zirə"də həmişə keyfiyyətli futbolçular çıxış edib" - Rafael Utziq

***"Zirə"nin yeni transferi Rafael Utziqin QOL.az saytına müsahibəsi.***

***- "Zirə"yə transferin necə baş tutdu?***

- İlk öncə onu deyim ki, Azərbaycana qayıtdığım üçün xoşbəxtəm. "Zirə"nin gələcək planları barədə mənə məlumat veriləndə eşitdiklərimdən razı qaldım və bu keçidə razılıq verdim.

***- Azərbaycan Premyer Liqasında çıxış edən digər klublardan da sizinlə maraqlanan var idi?***

- "Qəbələ" ilə ötən mövsüm Azərbaycan kubokunu qazandıqdan sonra təkliflər var idi. Lakin mən karyeramı başqa ölkədə davam etdirmək istəyirdim. Buna görə də Cənubi Koreyaya yollandım. İndi isə "Zirə"dən gələn təklifi qəbul etdim və burada olduğum üçün məmnunam.

***- Cənubi Koreyadakı karyeranız çox da uğurlu alınmadı. Buna görə Azərbaycandan getdiyiniz üçün peşman deyilsiniz?***

- Cənubi Koreyadakı futbolla Azərbaycandakı futbol fərqlidir. Burada daha çox topla oynamağa üstünlük verilir. Koreyada isə fiziki futbol ön plandadır. Bəli, oradakı çıxışım istədiyim kimi alınmadı. Hər bir futboçu daha çox oynamaq, daha çox şans qazanmaq istəyir. Koreyada az şans qazandığım üçün məmnun deyildim. Buna görə də ayrılmaq qərarına gəldim.

***- "Qəbələ"də komanda yoldaşınız olmuş Ruan Renato yaydan "Zirə"də forma geyir. Bura gəlməmişdən öncə onunla məsləhətləşdiniz?***



- "Qəbələ"də oynayana təkcə Ruan deyil, Azərbaycanda çıxış edən bir çox braziliyalılarla münasibətimiz yaranmışdı. Burdan ayrılsam da, əlaqələrimiz davam edirdi. Ruan olmasın, olsun Riçard Almeyda, hansı ki o da "Zirə"də daha əvvəl forma geyib. Onlarla tez-tez əlaqə saxlayırdım. Həmişə həmyerlilərim "Zirə" haqda müsbət fikirlər səsləndiriblər. Bəli, təklifi qəbul etməyimdə onların da rolu olub.

***- "Zirə"dəki hədəfləriniz nədir?***

- Təbii ki, ilk növbədə hər bir futbolçu üçün komandasının hədəfləri öndə gəlir. Daha sonra fərdi hədəflər. Mövqeyimi nəzərə alsaq, qollar vurub, məhsuldar ötürmələrlə komandamın uğur qazanması üçün əlimdən gələni edəcəyəm.

***- "Zirə"nin hazırda turnir cədvəlində ikinci pillədə qərarlaşması təklifi qəbul etməyinizə təsir göstərdi?***

- "Zirə"nin təklifi mənim üçün maraqlı idi. Komandanın turnir cədvəlində yüksək pillədə olması keçidimdə elə də rol oynamadı. Onsuz da bilirəm ki, "Zirə"də həmişə keyfiyyətli futbolçular çıxış edib. Bu gün də komandada yaxşı oyunçular var. Bütün bu amilləri nəzərə alaraq bura gəldim.

***- Rəşad Sadıqov barədə ilkin təəssüratlarınız necədir?***

- Müxtəlif futbolçulardan Rəşad Sadıqovun özü, işi haqda müsbət fikirlər eşitmişəm. Bura gəlməkdə məqsədim ona kömək etməkdir. Sadıqovla birlikdə çalışacağım üçün çox məmnunam.

***- Azərbaycan yığma komandasının müdafiəçisi Anton Krivotsyuk da Cənubi Koreyada çıxış edir. Onunla rastlaşmısınız?***

- Xeyr, xatırlamıram.

***- Keçmiş komandanız "Qəbələ"nin hazırda çempionatın son pilləsində olmasını necə şərh edərdiniz?***

- Komandanın bu vəziyyətdə olması məni məyus edir. "Qəbələ" ilə bağlı xoş xatirələrim var. Ötən il kuboka sahib çıxdıq, 2 dəfə avrokuboklara vəsiqə qazandıq. Ordan ayrılsam da, klub prezidenti, idarəçilərlə, oyunçularla bu gün də yaxşı münasibətim var. Amma indiki məqamda yalnız "Zirə"dəki işimə fokuslanmışam.

# Qrizmann "Atletiko"nun tarixinə düşdü



***"Atletiko"nun hücumçusu Antuan Qrizmann Madrid klubunun tarixində ən çox qol vuran futbolçu olub.***

"Unikal" xəbər verir ki, o, İspaniya Superkubokunun yarımfinalında "Real"a qarşı ilk matçda qol vurub. Bununla da, fransalı futbolçu "Atletiko"nun heyətində 174-cü qolunu vuraraq, Luis Araqonesi (173 qol) keçib. Üçüncü yeri Adrian Eskudero (169 qol) tutur.

Qrizmann "Atletiko"da 371 oyuna çıxıb.

Qeyd edək ki, 32 yaşlı futbolçu 2014-2019-cu illərdə "Atletiko"da oynayıb. O, daha sonra "Barselona"ya keçib. Qrizmann 2021-ci ildə yenidən icarə əsasında Madrid təmsilçisinə qayıdıb. Klub 2022-ci ildə onu birdəfəlik alıb.



# "Real" "Atletiko"nu məğlub edib finala yüksəldi

***"Real" İspaniya kubokunda yarımfinal oyununa çıxıb.***

"Unikal" xəbər verir ki, komanda Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərindəki "Əl Avval Park" stadionunda keçirilən matçda "Atletiko" ilə qarşılaşıb. "Kral klubu" rəqibini 5:3 hesabı ilə məğlub edərək finala adlayıb.

Digər yarımfinal oyununda bu gün "Barselona" "Osasuna"nı qəbul edəcək. Bu görüşün qalibi finalda "Real"a rəqib olacaq.

"Real" - "Atletiko" - 5:3

Qollar: Rüdiger, 20. Mendi, 29. Karvaxal, 85. Saviç, 116-öz qapısına. B.Dias, 120+2 - M.Ermoso, 6. Qrizmann, 37. Rüdiger, 78-avtoqol.

# Zidanın oğlu La Liqa klubunda

***"Real"ın sabiq baş məşqçisi Zinəddin Zidanın kiçik oğlu Elias Zidan "Betis"in futbolçusu olacaq.***



Bu barədə "RMC Sport" məlumat yayıb. Qeyd olunur ki, fransalı futbolçu dünən atasının müşayiəti ilə yeni klubu üçün tibbi müayinədən keçib. 18 yaşlı müdafiəçi ilə rəsmi müqavilə bu gün imzalanacaq.

Elias karyerasına "Betis"də gənclər komandasında başlayacaq.

Qeyd edək ki, E.Zidan "Real"ın akademiyasının yetirməsidir.

# "Braqa" kubokda mübarizəni dayandırdı

***"Qarabağ"ın Avropa Liqasındakı pley-off mərhələsindəki rəqibi "Braqa" Portuqaliya Kubokunda 1/8 final oyununa çıxıb.***

Komanda "Benfika"nın qonağı olub. Matç meydan sahiblərinin 3:2 hesablı qələbəsi ilə başa çatıb.

"Benfika" - "Braqa" - 3:2

Qollar:Mario, 8-avtoqol (0:1), Silva, 42 (1:1), Kabral, 45 (2:1), Martines, 48 (2:2), Aursnes, 70 (3:2)

Beləliklə, "Braqa" turnirdə mübarizəni dayandırıb, "Benfika" isə növbəti mərhələyə yüksəlib.

Qeyd edək ki, "Qarabağ"la "Braqa" arasındakı ilk görüş 2024-ün fevralın 15-də Portuqaliyada, cavab oyunu isə bir həftə sonra isə Bakıda olacaq.

